"AZƏRBAYCAN"
NƏŞRİYYATI



*Şairlik - Allah vergisi,*
*Şeir - İlahi sözdür,*
*Şair - Allah adamı.*
*Toxunmayın şairə,*
*Batarsız günaha.*
*Şair - Allah adamı,*
*Ağır gedər Allaha.*

QƏŞƏM ÇIRAQLI

# YOLUMUZ ÖMRÜMÜZ BOYDADIR

*ŞEİRLƏR*

"AZƏRBAYCAN"
NƏŞRİYYATI
BAKI – 2014

Ç16(13)

Redaktor: prof. dr. **Minaxanım Nuriyeva-Təkləli,**
Qafqaz Universiteti

“Yolumuz ömrümüz boydadır” kitabı Azərbaycan Yazıçılar Birliyinin üzvü, özünəməxsus poeziya nümunələri ilə kifayət qədər tanınan şair Qəşəm Çıraqlının oxucularla yeni görüşüdür. Kitabda son iki ildə yazılmış şeirlər toplanmışdır. Mövzu rəngarəngliyi, dil və üslub sadəliyi bu şeirlərin başlıca məziyyətlərindəndir. Odur ki, bu şeirlər oxucunu yormur, oxucuda ruh yüksəkliyi yaradır, ona dinclik, rahatlıq gətirir.

Əminik ki, şairin “Yolumuz ömrümüz boydadır” kitabı da əvvəlki kitablar kimi oxucular tərəfindən maraqla qarşılanacaq.

**Qəşəm Çıraqlı**
Ç16(13) Yolumuz ömrümüz boydadır (Şeirlər). – Bakı, “Azərbaycan” nəşriyyatı 2014. – 256 səh.

**Ç $\frac{4804000000–016(13)}{M670(07)–2013}$ Sifarişlə**

© “Azərbaycan” nəşriyyatı, 2014.
© Qəşəm Çıraqlı, 2014.

## HƏR ŞEY YÜZƏ YÜZ OLMUR...

Qəşəm Çıraqlı o nəslin nümayəndəsidir ki, bu nəslin göz açıb gördüyü, ilk həyat dərsləri əmək meydanından alınırdı. Ancaq bu dərslər səmərəsiz də qalmırdı; şairin gələcək mövzularını, həyata baxışlarını formalaşdırıb müəyyən etməkdə idi. Odur ki, hazırkı dövrün səciyyəvi məsələlərinə və qayğılarına, yəni cəmiyyəti məşğul edən, düşündürən, onun indisini və gələcəyini müəyyənləşdirən vacib məsələlər onun şeirlərinin də mövzusunu, məzmununu təşkil etməkdədir. Torpağa, onun sahibi olan insana, əməyə hörmət, tüfeyli həyata, meşşanlığa, rüşvətxorluğa, əliəyriliyə barışmaz mövqe tutmaq və nifrət bəsləmək; insanların, o cümlədən gəncliyin saflıq, təmizlik, azad ruhda tərbiyəsi, halallığa, xalqın milli dəyərləri sayılacaq nələri varsa ona inam və sevgi həm də bu şeirlərin bədii-estetik meyarlarını müəyyənləşdirə bilmişdir. Şairə görə bu gözəl dünyanın keçidləri də, sərt, başgicəlləndirici dolayları da, insanın doya bilmədiyi gözəllikləri də varsa da bu cəmiyyətdəki həmin ikili zidd keyfiyyətlər üzündən, yəni insanın insana, cəmiyyətə, eləcə də təbiətə olan münasibətləri ilə əlaqədardır. Məhz bu əksliyin ucbatından dünya hər bir halında şairi qədər onun oxucunu da ibrətamiz təzahürləri ilə bərk məşğul etməkdədir:

*Həyat qılınc kəsməz,*
*Balta doğramaz kötükdür.*

*Həyat çəkisiz-ölçüsüz,*
*Kiminə ağır, kiminə yüngül*
*Şirinli-acılı bir yükdür.*
**"Deməli"**

Həyat böyük məktəbdir, aqil bir qocadır, demişlər. Məhz buna görə də Qəşəm Çıraqlı həyat, yaşayış qayğıları, gündəlik problemlər və s. haqqında yazarkən onun öz təbii, sakit, təmkinli səsini duymuş kimi olursan. Əlbəttə, böyük sözü və eləcə də təcrübəli qələm əhlinin gəldiyi ibrətamiz nəticələr məhz müasirlərimizin canlı həyatını dəqiq müşahidələr əsasında araya-ərsəyə gəldiyindən təsirli və faydalı görünür. Şair bir çox hallarda bir el ağsaqqalı kimi, müdrik söz sahibi olaraq doğma elində-obasında baş verənlərə özünü məsul sayır, etiraz səsini qaldırıb haray salır; bu etirazın ünvanı müxtəlifdir. Şair üçün ən nəcib keyfiyyət, insanda ən qiymətli xüsusiyyət onun vəfalı, etibarlı olmasıdır. Bu etibarsızlıq yaltaqlıq və ikiüzlülüklə birləşəndə yaman olur:

*Sağlığında diddilər,*
*didişdirdilər.*
*Qədrini bilmədilər,*
*çərlədib öldürdülər.*
*Ölüsünü sevdilər,*
*heykəlləşdirdilər.*
*"Öldürdülər".*

Bunlar, əslində, ağrı verən, sızıldayan dərddir; cəmiyyəti də eyni dərəcədə düşündürən məsələlərdir; şair on-

ları - riyakar insanları ironiya ilə "zəmanə adamları" adlandırır:

*Zəmanə adamları*
*Yaman çoxalıb.*
*Düzlər əyilir,*
*Əyrilərsə düzəlmir.*
*Haradansa yadıma düşdü:*
*Bakı küləklərinə*
*Baş əyən*
*Bakı ağacları.*

**"Zəmanə adamları"**

Hamıya məlumdur ki, son illərdə kənd yerlərində yaşayışın, guya, çətin olduğunu bəhanə edib çoxu el-obasını, yurd-yuvasını atıb şəhərə qaçır. Bununla nəsilbənəsil yaşadığı doğma ocaq, yurd-yuva tərk edilir, bir vaxtlar abad olan, şənlik diyarlardan ayaq çəkilir. Bunlar Qəşəm Çıraqlını sıxır, onu düşündürür, çünki göz açıb gördüyü və sevdiyi yerlərin xəyalı, əlbəttə, onu rahat buraxmır. Lakin şair, bununla, kəndi və şəhəri bir-birinə qarşı qoymur. Təbiətin öz təbiətini saxladığı dağlar-təpələr şair üçün təmizliyin, mənəvi saflığın da simvoludur. Belə ki, el-obanın, dağın-bağın onun üçün təkcə südünü-qaymağını, çölünü-çəmənini vəsf etdiyi diyar deyil demək istəyir. Aydın olur ki, doğma yerlər şair üçün təmiz hava, ən çox da simvolik mənada təmiz bir dünyadır:

*Gedirəm dağlara*
*Hava almağa,*

*Şəhərdə havam*
*Çatışmır ancaq.*
*Bilirəm,*
*Şəhərdən getməsəm,*
*Şəhər məni udacaq...*

Qəşəm Çıraqlının Azərbaycanın hər bir bölgəsinə həsr edilmiş şeirləri çoxdur; Vətən guşələrinə, onun rəngarəng bölgələrinə, təbiətinin təsvirinə, bunlarla yanaşı, ən gözəl təbii nümunə olan insanına həsr olunmuş şeirlər adda-budda, təsadüfi olmayıb şairin daimi müraciət etdiyi mövzulardır. Qəşəm müəllim üçün ali insani keyfiyyət onun mərdliyi və kişiliyidir:

*Kişi kişidir,*
*Vətənin, ailənin dayağıdır.*
*Əlsizlərin əli,*
*Ayaqsızın ayağıdır.*

**"Kişi"**

Qəşəm Çıraqlının xalq ruhunda bəstələnmiş şeirləri öz forma və şəkli kimi daxili məzmunu və siqləti də xəlqidir. Eli-xalqı düşündürən nə varsa, bunu şair elə elin-xalqın öz üslubunda, onun öz dililə də çatdırmağı bacarır. Xüsusən, qısa, az qala ilk baxışdan yarı-yarımçıq təsiri bağışlayan bu parçalarda mükəmməl həyat səhnələri, insana məxsus xasiyyət və xislətlər, xarüqə keyfiyyətlər üzə çıxır:

*Qadının gücü*
*Zərifliyi boydadır.*

yaxud:

*Dərd dərddir -*
*Deyil daş-divar.*
*Dərdin də*
*öz dərdi var.*

Öz lakonikliyi, sadə və yığcamlığı etibarilə hazırcavab, ötkün bir nitq keyfiyyəti daşıyan bu kiçik parçalar hikmətli-ibrətli ifadələrə yaxınlaşır:

*Necə ki deyilməyib-*
*söz ölüdür.*
*Elə ki deyildi,*
*Yaz gülüdür.*

eləcə də:

*Qılınc qında yuxuludur,*
*Qından çıxdı qorxuludur.*

və ya:

*Eyibinə yamaq vur,*
*Ayıbın görünməsin* və s.

qeyd etdiyimiz kimi öz fikri ciddiliyi ilə yanaşı, dilimizin dərin aforizmlərini xatırlatmaqdadır.

Şairi cəlb edən məsələlər, onu düşündürən mövzular: doğma diyar, bizim ellər, bərəkətli çöllər, 20 Yanvar... Xocalı... Qarabağ... vətəndaş qayğılarından doğmuşdur; bunlar eynilə müəllifin çeşid-çeşid daxili duyğuları ilə həmahəng səslənən, əks-səda tapan mətləblər, məqsədlər, ar-

zulardır. Əgər desək ki, bu şeir parçalarında adət etdiyimiz şəxsiyyətlər, şairin yaxşı tanıdığı insanlar, demək olar ki, yoxdur, bunu da müəyyən mənada təbii qarşılamaq mümkündür. Və düşünürsən ki, sanki, bu şeirlər ayrı-ayrı adamlara - şairin özünə çox yaxın olan, sirdaş olduğu adama, qəlb dostuna, oğluna-qızına, bir sözlə, bu adamlara ünvanlansaydı, bəlkə, çox şeyi itirərdi. Lakin belə deyil və nə yaxşı ki, şeirlər şairi cəlb edən mənəvi-insani keyfiyyətlərə ünvanlanıb. Bir çox hallarda bu elə belədir ki, var. Demək ki, şair ayrı-ayrı əzizlərinə, tək-tək adamlara, konkret şəxslərə nə deyəcəksə, elə məhz onu insana-insanlığa deyir. Məqsədinə nail olur şair; təbliğ etdiyi ideyaları oxucularına yetirə bilir. Çünki yanlış hallar, tənqid olunası keyfiyyətlər, nə qədər qeyri-insani olsa da yenə insana məxsus olan ziddiyyətli xislətlər şairi narahat edir:

*Həyat həyatdı də,*
*Hər şey yüzə yüz olmur.*
*Vaxtında qəddara - qəddar,*
*Namərdə - namərd deməyə*
*İnsanda*
*cəsarət olsa da*
*üz olmur, olmur.*

**“Üz olmur”**

Şeir misra-misra, söz-söz yaranır, hasilə gəlir, heç də bunlar asanlıqla başa gəlmir. O da doğrudur ki, qələmində xoş əməllərə, düzlüyə-dincliyə, yaxşılığa, xeyirxahlığa çağırış çox güclüdür. Bunlar bir zəhmət adamı olan, halallıqla

öyünən şairdə onun öz həyat yolundan, xasiyyətindən, davranışından qaynaqlanır.

*Mən söz demirəm,*
*Vəsiyyət edirəm.*
*Ərənlər gedən yolu*
*Təkrar edirəm,*
*Tərk etmirəm.*

Qəşəm Çıraqlının şeirlərində - bu lirik nümunələrdə obrazlılıq, xəlqi qaynaqlardan gələn bədii müqayisələr ahəngdarlığı artırır, sözün təsirini gücləndirir.

*Qəlbimdə bir sevgi cücərir,*
*Kimə boylanacaq,*
*Kimə qismət olacaq*
*bilmirəm.*
*Hər əzaba sinə gərir,*
*Gizlin-gizlin cücərir.*
*Boy atır, yekəlir, bilirəm,*
*Kimə qismət olacaq, bilmirəm.*

deyən şair belə həzin, oxşama tərzli şeirləri ilə yanaşı, ən çoxu da yarı ciddi, yarı şux-məzəli bir tonda:

*Yaxşılıq edənlə*
*Yaxşılıq edilən-*
*bir tərəzinin*
*tarazlaşmış gözləridir.*

**"Yaxşılıq"**

*"Şeir də güzgü kimidir"*
*Güzgü-güzgüdür:*
*...daxili aləmin zənginliyini,*
*ənginliyini göstərir.*

deməklə əslində saf, təmiz və sadə duyğuları dilə gətirir. Bu parçalarda tərəzi-tarazlaşmaq; zənginlik-ənginlik kimi yaxın sözlər özü gərəkli bir harmoniya yaradır, şeiri də, fikri də maraqlı edir. Həmin ovqatda yazılmış və lirik qəhrəmanın ən başlıcası fədakar, səmimi hisslərini çatdıran:

*Mən səni başıma*
*tac eyləmişdim.*
*Tac təki zirvədə*
*dura bilmədin.*
*Qarışıb göz yaşlarıma*
*düşdün gözümdən*

misraları göstərir ki, şairin, həqiqətən, yağış kimi üşüdən, od kimi yandıran bir təəssüratı ifadə edən təsirli poetik parçaları da vardır. Qəşəm Çıraqlının insan ömrünə, bu ömrün zirvəsi, bir növ nəticəsi, yekunu sayılan qocalığa, ömrün ahıl çağlarına da deməyə sözü vardır. Şair bu zaman da öz yarıməzəli, yarı ciddi, həm də saf, səmimi tərzinə sadiq qalır, qocalıq çağlarını ruh yüksəkliyi, əzm və səbatla dəyərləndirir:

*Ömrümüzü uşaqlıqda - uşaqlığa,*
*Gənclikdə-gəncliyə*
*İsraf etdik,*

*Xərclədik.*
*Qocalığa-*
*nimdaş paltar təki gəldik.*
**"Qocalığa nimdaş gəldik"**

Yenə həmin üslubda, səmimi bir tərzdə az qala kövrək bir notda deyib çatdırdığı:

*Həyat şirindir, bilirəm,*
*Həkimdən-həkimə varıram.*
*Tutmağa Tanrı ətəyi,*
*Saman çöpü axtarıram*

şerində yaşamaq uğrunda mübarizə, könül çırpıntıları əks olunur. Bu parçada Qəşəm müəllim üçün həyat bayağı bir həvəs-ehtiras deyil, mənalı ömür arzuları, tam dolğun bir yaşam sevgilərindən nəşət edən istəkdir. Beləliklə, şairin daxili dünyası da çox böyükdür. Kitabdakı şeirlərin təhlili göstərir ki, bu ürəklərin gözəlliyidir; daha doğrusu, ürəkdən gələn, ruhdan süzülən qiymətli duyğuların dəyəridir.

Şairin müraciət etdiyi mövzular rəngarəngdir və qeyd etdiyimiz kimi, bu zaman hikmət, mənalandırma, nəticələndirmə özünü qabarıq hiss etdirir. Qəşəm Çıraqlı milli - mənəvi dəyərlərimiz kimi əxlaqi-mənəvi irsimizə də ehtiramla, sayğı ilə yanaşır. Şairin əsərlərinin müəyyən qismi bu sayaq mövzulara həsr edilməklə ruh aləmimizin ən yaxşı, ən lazımlı ifadəçisinə çevrilir:

*Kim kimi sevir-sevsin,*
*Nə işimiz var.*
*Sevən də, sevilən də əzizimizdir.*

*Təki insanı Tanrı sevsin,*
*Tanrı sevgisi bəsimizdir.*

**"Kim kimi sevir"**

Yurdun Xocalı harayını, Şuşa -Qarabağ dərdini-nisgilini şeirlərində dönə-dönə bəyan edən şairin, sanki, millətin bu faciəli tarixi ilə bağlı nə sözü qurtarır, nə də dərdinin odu səngiyir. Bu dərdin əks-sədası onun bu örnək olaraq verdiyimiz nümunə qədər əksər şeirlərində bir ürək nidası kimi daim vurmaqdadır.

*Ürəyimdə*
*Qarabağ nisgili vardı.*
*Ürəyim dərd əlindən*
*Cadar-cadardı.*
*Qarabağ təki*
*Vüqarım vardı...*

**"Ürəyim cadar-cadardı"**

Bu şeirlər sözlə nəqş edilən mənzərələrin də boyalardan yapılmış şəkillər kimi heç vaxt solmayacağına, təsir qüdrətinin əksilməyəcəyinə bizi də inandırır. Bu mənzərə - sözlə çəkilmiş, güclü duyğunun əsəri olan şairanə peyzaj sözün də əsrarəngiz rəngləri olduğunu göstərir.

*Gəldi,*
*meşələri lüt-üryan qoydu payız.*
*meşələr gizlənməyə,*
*bürünməyə*
*Yarpaq tapmadı.*

*Ağaclar meşədən qaçmaq istədi,*
*Xəzəllər sərildi ayaqlarına...*

Şairin sözə münasibətini gəlin, sadə bir yaradıcılıq halı, vərdişə çevrilmiş bir yazı tərzi kimi qəbul etməyək. Bir çox hallarda sözün özü şair üçün düşüncə mənbəyinə çevrilir, sözün məqamı, təbiəti onu məsuliyyətli fikirlərə çəkir. Odur ki,

*Söz ilan təki*
*neçə dəfə*
*qabıqdan çıxır,*
*qabığını dəyişir*
*söz şeir olana qədər*

deyən şairin kitaba daxil edilən şeirləri üzərindəki müşahidələrimiz zamanı onun öz dilinə məsuliyyətlə yanaşmasını üzə çıxaran "qələm də nadinc uşaq kimidir", "tüstüsü də olmayacaq, istisi də olmayacaq", "Tanrı əmri", "əlsizlərin əli", "dərdin də öz dərdi var" "layla tumarı", "qoca əyyam..." və s. kimi duyğulu, poetik , həm də şeir yazmanın məsuliyyətini çatdıran örnəklər diqqətimizi çəkdi. Qəşəm Çıraqlı:

*Bir söz şerə gəlirsə,*
*Yer tapıb yerləşirsə,*
*Deməк doğmadır bizə,*
*Doğmadır dilimizə.*

dedikdə, məhz son zamanlar başı çıxdı-çıxmadı, dilimizi mənşəcə eşələyənlərə, doğma dilimizdə "yad" söz axtarışına çıxan "sözbazlara" üzünü tutur. Bu, ziyalı mövqeyidir, alqışlara layiq vətəndaş görüşüdür.

*Hər gün*
*Yaza-yaza*
*yazmağı,*
*Oxuya-oxuya*
*dil öyrənirəm.*
*Dildən*
*söz dərirəm,*
*Sözü şeirə döndərirəm.*

**"Öyrənirəm"**

Bu mənada həmin misraları sözə, söz sənətinə sayğı və hörmətə həsr olunduğunu düşünmüş olursan.

Qəşəm Çıraqlı bir neçə şeir kitabı müəllifidir və inanırıq ki, zamanı və onun - ən aktual problemlərini daim diqqətnəzərində saxlayan şairin bu kitabı da oxucu auditoriyası tərəfindən maraqla qarşılanacaqdır.

*Şeirlər tərcümeyi-halım,-*
*Qəlbimin dərinliyindən*
*Üzə çıxmış duyğularım...*
*Oxuyun şeirlərimi.*

Nə yaxşı ki, şair həyat maraqlarını, mübarizə və amallarını şeirlərinə - bədii yaradıcılığına köçürə bilmişdir.

**Minaxanım Təkləli,**

**Qafqaz Universiteti**

*26 iyun 2013.*



2. - 3662

## GÜCÜMÜZ - BİRLİYİMİZDƏDİR

Gücümüz -
Bayrağımızın
Böyüklüyündən,
Ucalığından da
Asılı deyil.
Gücümüz -
Ordumuzun güclü,
Ölkəmizin - varlı, karlı
Olmasından da asılı deyil.
Gücümüz - birliyimizdədir,
Gücümüz - güc mərkəzindədir!
Baxır - mərkəz
Kimin əlindədir.

$

## SƏN ŞERİMİZİN RƏSULUSAN

***Ulu şairimiz Rəsul Rzaya***

Sarı dana böyüdü,
Sarı ana oldu,
Sarı nənə oldu.
Sarı danaya
Ömrü qurban getmiş,
Qızcığaz böyümədi:
Ana olmadı,

Nənə olmadı,
Qocalmadı,
Özü uşaq qaldı,
Tək-tənha qalmış,
Qəbri qocaldı.
Dövrümüzün
Ən insanpərvər şairi,
Səni arzuları
Körpə qəlbində
Dəfn olunmuş
Uşaq məzarları qocaltdı.
Sən böyüksən, sən ulusan.
Səni tanrı göndərmişdi,
Sən şerimizin
RƏSULUSAN.

## BAKI

Bakı!
Başının üstündə,
Yellənən
Bayrağa bax!
Yapış bayrağın
Ayağından,
Göydələnlərin qanadlarında
Göylərə qalx.
Günəşi şərəf, şöhrət
Ordeni təki

Sinənə tax.
Fəxrlə,
Göydələnlərin çiyinlərindən
Günəşə, Aya salam ver,
Göylərdən
Dünyaya bax.
Dünya da həsədlə
Sənə baxacaq.

***2011***

## QANADI QIRILMIŞ QUŞ KİMİYƏM

Kef deyilən şey,
Yadımdan çıxıb,
Qanadı qırılmış
Quş kimiyəm.
Qarabağ dərdi
Dolub qarnıma
Yeməmiş, içməmiş,
Sərxoş kimiyəm,
Dərdlərin əlində
Naxoş kimiyəm.
Nə ayıla bilirəm,
Nə sağala bilirəm,
Ömürlük bihuş kimiyəm.
Çıxış yolunu
Tanrıdan uman,
Göylərə açılmış

əllər kimiyəm.
Deyin, ay ellər, obalar,
Nə etməliyik?
Qarabağ dərdimizi bir yolluq
Dəfn etmək üçün,
Pirəmi, həccəmi getməliyik?
Yoxsa
Yaraqlanıb, silahlanıb
Qarabağı xilas etməliyik?!

***2012***

$

## ÜRƏYİM CADAR-CADARDI

Ürəyimdə
Qarabağ nisgili vardı.
Ürəyim dərd əlindən
Cadar-cadardı.
Qarabağ təki
Vüqarım vardı...
Rus ordusunun
Dəstəyilə,
Daşnaklar sinəmi
Çapıb apardı.
Gərək indi mən,
Dişimlə, dırnağımla
Yaraqlanam, silahlanam.

Silahlanam, yaraqlanam,
Başımın üstündə dalğalanan
Cəsarət, qeyrət-bayrağımla,
Şan-şöhrət bayrağımla
Qarabağ adlanan vüqarımı,
Yurdumu, torpağımı
Düşmən caynağından
Qoparam.

***2012***

$

## DÖYÜŞMƏYİN VAXTI ÇATIB

Daha
Mıs-mısdan keçib,
Daha susmaqdan keçib,
Mustafa deməyin
Vaxtı çatıb.
Döyüşə getməyin
Vaxtı çatıb.
Sazlayaq tankları,
Hazırlayaq topları,
Yoxlayaq uçaqları,
Dolduraq "qrad"ları,
Götürək silahları
Duraq əmrə müntəzir;

Millətim mənim,
Qeyrətim mənim.
Millətim mənim,
Qüdrətim mənim.
Millətim mənim,
Yurd-yuvam mənim.
Döyüşə hazır
Ordum mənim.
Başımın üstündə üçrəngli bayraq,
Arxam, dayağım mənim,
Üçrəngli bayrağım mənim.
Çapıb-çapaq qara dağı
Yolumuzu kəsməsin.
Basaq bağrımıza Qarabağı
Qara yellər əsməsin.
Daha mıs-mısdan keçib,
Daha susmaqdan keçib,
Mustafa deməyin vaxtı çatıb.
Döyüşə getməyin vaxtı çatıb.
Əmrə müntəzirik biz,
Əmr gözləyirik biz,
Cənab Prezidentimiz!

***25.06.2010***

$

## BİR VAXTLAR

Bir vaxtlar
Baxmadıq
Əyrisinə, düzünə,
Baxmadıq insanların
Məkrli gözünə.
İnandıq,
İtin-qurdun sözünə:
Açdıq darvazaları,
Qapıları
Hər yoldan ötən
Namərdlərin üzünə/.
Doldu ölkəmizə,
Anasının əmcəyini
Kəsənlər,
Doğmasından, dostlarından
Küsənlər,
Daraşdı Vətən torpağına
Bu itmilçəkləri,
Bu atmilçəkləri,
Bu ququ quşları
Qarabağda yuva saldılar,
Doğub-törəyib çoxaldılar.
Fürsət tapanda yerliləri
İlan kimi çaldılar.
Şərik çıxdılar torpağımıza,
Mədəniyyətimizə.
Hər yandan "xox" gəldilər bizə,
Çirkab atdılar üstümüzə.

İndi, Vətən oğulları
Bağlayın darvazaları, qapıları
İtin-qurdun üzünə,
İnanmayın düşmənlərin
Yağlı-yavan, yalan-palan
Sözünə.

***2012***

$

## VƏSİYYƏT EDİRƏM, SÖZ DEMİRƏM

İstəsən inan,
İstəmirsən inanma.
Kef sənindir,
Mən vəsiyyət edirəm,
Söz demirəm.
Mən kiməm ki,
Tanrı adından
Söz deyəm?
Deyəm-səbir elə,
Hər dərdə döz belə.
Tanrım özü buyurub,
"Dara düşdün səbir elə".
Səbir uzun ömrün açarıdır,
"Səbir" sözündə
Tanrı hökmü vardır.
Səbir ömrü uzadacaq,
İlahi qapı açılacaq,

Səni təhlükədən qurtaracaq.
Mən söz demirəm,
Vəsiyyət edirəm,
Ərənlər gedən yolu
təkrar edirəm,
Tərk etmirəm.

***2012***

## YÜYƏN, ÜZƏNGİ, QUŞQUN, YƏHƏR, CİLOV NAĞILI

İnsanlar cürbəcür olur:
Var yüyən insan,
Var üzəngi insan,
Var yəhər insan,
Var cilov insan
Və bir də var,
Quşqun insan.
Cilov insan, demokratiyanı boğur,
Cilovlayır fikirləri.
Üzəngi insanlar kimlərisə ucaltmağa,
Ayaqlar altına döşənir.
Quşqun insanlara gen dünya dar gəlir,
Quyruq altda rahat olur, dincəlir.
Yüyən insan insanları düz yollara
yönəldir.
Yəhər insanın işi,
Yəhər adından bəllidir.

## QADINLAR

Qadınlar da uşaq kimidir:
Bərk bağlananda incidir,
Boş bağlananda inciyir,
Ağlamağın, gülməyin
Yerini, vaxtını bilir.

***2013***

## TALE

Sən qaçdın, qaçdın
Zamana yoldaş olan,
Qatarın dalıncan.
Qatara çatmadın,
Qatardan qaldın
Qatar qəzaya düşdü,
Sən ölümdən qurtardın.

## GÖYLƏR - GÖY PƏRDƏDİR

Gündüz göylər
Göy pərdədə,
Ulduzları gizlədir.
Ulduzlar göydə pərdələnib,
Pərdələr çox dərindədir.
Göylərin göy pərdəsini
Qaldırmaq olsa,
Ulduzları şam təki,
Yandırmaq olsa,

İşığında
Tanrı dərgahına
Boylanmaq,
Baxmaq olar.

## VƏTƏNİ İTİRİB YURD AXTARIRIQ

Vətəni itirib,
Yurd yeri axtarırıq,
Vətəni tapmağa,
Tarixlər boyu,
Türkün xilaskarı
Bozqurd axtarırıq.
Bilmirik,
Ölüyük, ya diriyik.
Bilmirik
Hardan gəlib,
Hara varırıq,
Vətəni itirib,
Yurd axtarırıq.
Vətəni xilas etməyə,
Bozqurd axtarırıq.
Vətən evimiz,
Yurdumuz, yuvamız idi,
Çörəyimiz, suyumuz,
Havamız idi.
Vətəni itirəndən
Yurd-yuva qarışıq:
Özümüzü itirdik.

## ÖMÜR

Ömür -
Ömürlük bir yükdür
Kürəyimizdə,
Sevincdir, kədərdir
Ürəyimizdə.
İstər uzun olsun,
İstərsə gödək,
Ömrü Vətənə
Qurban edək,
Tanrının hüzuruna
Üzüağ gedək.

***2012***

## XARİCİMİZ - DAXİLİMİZ/İN GÜZGÜSÜDÜR

Daxilimizin güzgüsüdür,
Xaricimizin yaraşığı.
Üzümüzdə, gözümüzdə
Bərq vurur
Daxilimizin işığı.
Neçə ki gözəldir,
Dərimiz, dırnaqlarımız,
Saçımız, barmaqlarımız,
Neçə ki parlaqdır, işıqlıdır,
Yaraşıqlıdır,

Gözlərimiz, yanaqlarımız,
Deməli, sağlamdır, normaldır
Daxili orqanlarımız.

***2012***

## DÖNƏN DÜNYA

Bu dünya,
Dünya boyda:
Kiminə cənnətdir,
Kiminə cəhənnəmdir.
Cənnətlə-Cəhənnəm
Arasında qalan sahə,
Şeytanlar tərəfindən
Özəlləşibdir.
Bu Cənnət-Cəhənnəm
Dünyasında,
Yer tapa bilməyənlər,
Bir-bir uçub,
Göylərə gedir.

***2013***

$

## SÖZ - ŞEİR OLANA QƏDƏR

Bilirsənmi,
Söz-şeir olana qədər
Neçə köynək cırır,
Neçə don dəyişir?!
Bilirsənmi,
Söz-şeir olana qədər
Söz-qələmlə,
Qələm varaqla
Necə əlləşir?!
Bilirsənmi,
Söz ilan təki
Neçə dəfə
Qabıqdan çıxır,
Qabığını dəyişir,
Söz-şeir olana
Qədər?!

***2013***

## YETMİŞ İLDİR YOL GƏLİRƏM

Yetmiş ildir yol gəlirəm,
Yol gedirəm,
Yollara yoldaş olmuşam,
Doğmalaşmışam, qardaş olmuşam.
Mənlə başlanan
Bu yol,
Harda bitəcək,
Bilmirəm.

## ƏLİ RZA XƏLƏFLİYƏ

Çaxmağı çək,
Çırağı yandır.
Tut qələmin əlindən,
Söz başına dolandır.
Çaxmağı çək,
Ocağı yandır,
İsti ocağın olsun,
İsti evin-eşiyin,
İsti bucağın olsun,
Ürəyində
Ürəkləri isidən,
İsti şeirlər doğulsun.

## KÖRPÜ

***Əslən Gürcüstandan olan,***
***dostum-böyük və xeyirxah insan***
***Sədrəddin Mahmud oğlu Daşdəmirova***

Bir ölkədə
Bir xalq idik,
Dəyişdi zaman,
Dəyişdi məkan,
İki ölkədə,
İki sərhəddə yaşadıq.
İki ölkə,
İki sərhəd,

Bir körpü
İki dayaq üstdədir.
Bu körpünün
Bir dayağı-sən,
Bir dayağı-mən.
Bizdən gəlib keçir
Gələn-gedən.
Gedənləri
Sən yola salırsan,
Mən qarşılayıram.
Mən yola salanda
Sən qarşılayırsan.
Gələnlərini də,
Gedənlərini də,
Alqışlayıram.
İki qonşu dövlətdə,
İki qonşu sərhəddə,
Eyni bir xalq
İki ölkə arasında,
İki dayaq üstdə,
Bir körpü yapdı,
Körpü-Dostluq yaratdı.
Yapdığımız bu körpü
İki qonşu xalqın,
Sevincini, kədərini,
Çiynində daşıyacaq
Əl-ələ, kürək-kürəyə,
Daha mehriban yaşayacaq.

***12.12.2012***



3. - 3662

## QULAQ BƏYƏNMİR

Dil-dediyini deyir,
Qulaq eşidir, bəyənmir.
Dil-demək istədiyini demir,
Demək istəmədiyini deyir.
Dil özü yaxşı bilirdi,
Tanrı qarşısında günah
Vicdanı qarşısında
Düz eləmirdi.

***2013***

## FACİƏ BAŞ VERMƏDİ

Barmaq asta-asta
Endi tətiyə
Tətik dəhşətə gəldi,
Gözünü yumdu,
Görəcəyi işi unutdu.
Tətik gözlərini açmadı,
Tüfəng rahat nəfəs aldı,
Nişangah nişanda
Salamat qaldı
İnsan şeytana uymadı.
Qətl olmalıydı, olmadı.

$

## QOCALIĞA NİMDAŞ GƏLDİK

Ömrümüzü:
Uşaqlıqda-uşaqlığa,
Gənclikdə-gəncliyə,
İsraf etdik,
Xərclədik.
Qocalığa,
Nimdaş paltar təki
Gəldik.

***2011***

## TANRI BORCU

Tanrı bizi
Bu dünyaya
Borc veribdir,
Vaxt çatanda
Alacaq,
Dünya yenə
Öz yerində qalacaq.

***2011***

$

## AXAR SU KİMİDİR

Qadınlar da,
Axar su kimidir,
Böyük işlər görürlər.
Özləri od ola-ola,
Od söndürürlər.

## BAYATI BOYDADIR

Şeirlərim:
Ölçüdə, biçidə,
Həcmində, çəkidə,
Vəznində
Bayatı boydadır,
Kimi yasdadır,
Kimi toydadır.

## SEVİLƏCƏKSƏN

Tanrı bəndəsi kimi,
Unudub qəzəbi, kini
Hamını sevə bilsən,
Hamı tərəfindən, seviləcəksən,
Bəndələr tərəfindən, sevildiyin üçün,
Tanrı tərəfindən də
Seviləcəksən.

## GÖZƏ GÖRÜNMƏYƏN TELLƏR

Kainatda,
Bu gözəl həyatda
Hər nə var,
Görünməz tellərlə
Bir-birinə bağlıdır.
Bir-birinə dəstək olur,
Bir-birini yaşadır.

## UŞAQ OLMAQ İSTƏMİRƏM

Uşaq olmaq istəmirəm,
Uşaq olub,
Uşaq dövrü yaşamaq
İstəmirəm.
Hamı uşaqları qınayır,
Hamı uşaqları danlayır.
Baş verən nöqsanları,
Günahları
Atırlar
Günahsız uşaqların
Üstünə,
Bütün günahları yazırlar,
Günahsız uşaqların
Ayağına.

***2013***

## XOŞBƏXTLİK

Xoşbəxtlik də,
Yırtıq, sökük cib kimidir.
Kimsə, nəsə itirər,
Kimsə, nəsə tapar.
Xoşbəxtlik də,
Qızıl külçə kimidir
Tapdın, qorumaq gərək.
Qoruya bilmədin,
Kimsə, əl atıb götürəcək,
Kimsə, qapıb götürəcək.
Xoşbəxtlik
Yırtıq-sökük cibdəki
Qızıl pul kimidir,
Qızıl pulu qorumaq üçün,
Cibi-yırtıq-sökükdən
Qoru.
Xoşbəxtlik
Başı dumanlı, qovğalı
Uca zirvəli dağlar kimidir.
Yağış döyər, sel sökər,
Şimşəklər çapar, talayar,
İldırımlar oda qalayar
Yenə dağlığında qalar.
Xoşbəxtlik
Elə bir zirvədir ki,
Hər əl çatmaz,
Hər ün yetməz.

Xoşbəxtlik zirvəsini
Fəth edənlər
Bu dünyadan nakam
Getməz.

***2012***

## ŞEİR YAXŞI ALINAR

Şerin yazılması da,
Ürək tutmaları kimidir.
Tutmalar güclü olanda,
Şairi sarsıdanda,
Uğur marşı çalınar,
Yaxşı şeir alınar.

## AZAN SƏSLƏRİ

Hər gün,
Bir neçə dəfə
Qanad açır,
Göylərdə uçur
Azan səsləri.
Ulduzlarla görüşür,
Mələklərə qovuşur,
Tanrıya çatır,
Tanrı dilində
Azan səsləri.

## VƏTƏN

Ətəyinə sığınmışam,
Qəbul elə balan olum.
Bük ətəyinə dönə-dönə,
Ətəyində qalan olum.
Ətəyin  Tanrı ətəyi,
Üstə namaz qılan olum,
Vətən, mömin balan olum.

/ ***2012***

## NÖQTƏ QOYULMAZ

Sevgiyə, elmə
Nöqtə qoyulmaz.
Qoyulsa:
Sevgidən-sevgi,
Elmdən-elm
Doğulmaz.
Sevgi də ...olmaz.
Həyat şam təki
Sönər - yanmaz.

***2012***

$

## İNSAN HƏYATI

İnsan həyatı
Oxunmamış,
Yazılmamış
Bayatıdır,
Bayatı
İnsan həyatıdır.

***2012***

## YETKİNLİK FƏLSƏFƏSİ

Yetkinliyə:
Bir az günəş, insan hərarəti,
Bir az su, hava,
Torpaq bərəkəti,
Zəmi yaşılı, cəsarəti,
Bir az da,
Zaman fasiləsi gərəkdir;
Həyatda yetkinlik
Cücərəcəkdir.

***2012***

$

## DÜNYA BELƏ YARANIB

Mən sənə,
Deyirəm yenə:
Dünyanın dərdini
Alma vecinə,
Get işinə-gücünə!
Dünya öz orbitində
Belə yaranıb,
Belə də olacaq.
Öz orbitindən:
Nə bir addım sağa,
Nə bir addım sola
Atmayacaq.

***2013***

## ÖZƏLLƏŞMİŞ SEVGİ

Sənə olan bu sevgi,
Tutub gözlərimi,
Heç kimi görə bilmirəm,
Heç kimi sevə bilmirəm.
Sənə olan bu sevgi,
Əsir götürüb məni,
Sənin kölən olmuşam.
Sənə sadiq
Bir qulam,
Azadlığa
Atma məni.

Bu sevgini
Özəlləşdir,
Heç kimə satma məni.

***2013***

## YAZDIĞIM ŞEİRLƏR

Yazdığım şeirlər,
Yazmadıqlarımdan
Uğurludur:
Mandat təki əlimdədir
Şüar təki dilimdədir,
İşıqlıdır, nurludur.

***2013***

## BİZ UŞAQ KİMİYİK

Dünyaya görə
Uşaq kimiyik
Biz elə:
Uşaq marağı var
Ürəyimizdə.
Uşaq marağı var,
Gözlərimizdə:
Gördüklərimizi
Almaq istəyirik,
Daha çox
Qamarlamaq istəyirik elə.

Nəfsimiz tox olsa da,
Gözlərimiz acdır belə.

## KİM KİMİ SEVİR

Kim kimi sevir, sevsin
Nə işimiz var.
Sevən də, sevilən də
əzizimizdir.
Təki insanı
Tanrı sevsin,
Tanrı sevgisi
Bəsimizdir.

***2013***

## ŞEİR YAZMAQ OLMUR

Ömür çatıb elə həddə,
Güc qalmayıbdır bədəndə.
İlham üzə gülməyəndə,
Şeir yazmaq olmur.

Üfüqdə gün görünəndə.
Təbiət üzə güləndə,
Gözəllər gözə dəyməyəndə,
Şeir yazmaq olmur.

***2013***

## ZAMAN CƏZALANDIRIR

Yazılmış şeirlərdə,
Söz tarazlığı olur,
Fikir tarazlığı olur,
Zaman tarazlığı olur,
Həyat tarazlığı olur.
Yazılmış şeirlərdə
Tarazlıqlar pozulanda,
Zaman-zamanında
Cəzalandırır.

***2013***

## TƏKCƏ ALLAH BİLİR

Şeir də,
Ana bətnində böyüyən
Uşaq kimidir:
Haçan doğulacaq,
Oğlan olacaq,
Qız olacaq,
Sağlam doğulacaq -
Xəstə doğulacaq,
Təkcə Allah bilir.

***2013***

## FƏRQLİ BAXIŞLAR

Eyni istiqamətə baxırıq:
Sən baxdığın istiqamətə,
Sən baxdığın nöqtəyə
Mən də baxıram.
Baxışlarımız
Bir nöqtədə birləşir.
Sən görmədiyin,
Görə bilmədiyin həqiqətləri
Mən görürəm
Gördüklərimi
Şeirlərimdə deyirəm.

***2013***

## DALDALANIRAM

Xəbərçi qulaqla,
Gözətçi gözlə,
Dəyirman dişlə,
Köməkçi əllə,
Ölçücü ayaqla,
Dözümlü dizlə,
Gümüşü saçla,
Nurani üzlə
Əl-ələ verib,
Dolanıram,
Əzraildən
Daldalanıram.

***2013***

## EŞİTMİRİK, GÖRMÜRÜK

Bu dünyada,
Elə səs var, eşitmirik.
Elə işıq var,
Görmürük.
Axı, biz hələ,
Bu səsi eşitməyə,
Bu işığı görməyə
Qadir deyilik.

***2013***

$

## ÖMRÜN ENİŞİ

Ömür ötür,
Yaş keçir
Çıraq təki yanır,
Sönür insan.
Yuvada tək qalmış,
Lax yumurtaya
Dönür insan.

***2013***

$

## ŞEİRLƏR DƏ

Şeirlər də,
Gənclik kimidir,
Kimindən qan,
Kimindən çiçək
Qoxusu gəlir.

***2012***

## TANRININ DA XOŞUNA GƏLƏR

Hər gün
Bir neçə kərə,
Məscidlərdən azan,
Kilsələrdən
Zəng səsləri
Səs-səsə, əl-ələ
Verib.
Tanrı dərgahına ucalır.
Yer kürəsindəki
Bu birlik,
Bu ibadət
Tanrının da
Xoşuna gəlir.

* * *

Hər gün,
Bir neçə kərə

Məscidlərdən azan,
Kilsələrdən
Zəng səsləri gələndə,
Müsəlmanlar məsciddə,
Xristianlar kilsədə
Tanrıya dua edir.
Məscidlərdən gələn
Azan səslərilə,
Kilsələrdən gələn
Zəng səsləri,
Əl-ələ verir,
Səs-səsə verir,
Tanrıya üz tutur,
Göyə yüksəlir.
Yer kürəsindəki,
Bu ibadət,
Bu birlik,
Bu həmrəylik,-
Tanrının da
Xoşuna gəlir.

***2011***

$



4. - 3662

## DƏNİZƏ GEDİRƏM

Gedirəm dənizə
Qarmaq atmağa.
Balıqları incidən,
Dalğaları tutmağa.

## DEYİLMİŞ SÖZ

Deyilmiş söz
Sındırılmış qoz kimidir:
Bəzisi çürük çıxar,
Bəzisi saf çıxar.
Saf çıxan sözlər
Çürük sözlərin
Evini yıxar.

***2012***

## ÇƏPƏR

İnsanlarda olmasaydı,
Təkəbbür,
hikkə, tamah,
əda
Hamı xoşbəxt olardı,
Hamı xoşbəxt yaşayardı
Bu dünyada.

***2012***

## PƏRSƏNG

Düz işə pərsəng olma,
İşlərimiz düz olsun.
Düz oturaq, düz duraq
Əyri işlər qalmasın.
İşləri düzgün quraq,
Pərsəng lazım olmasın.

***2012***

## İNSAN YOL AYRICINDA

Hər doğulan uşağın,
Qarşısında iki yol olur:
Ya böyüyüb-fərd olur,
Ya da böyüyür
Böyük dərd olur.

***2011***

## YADDAŞ ARXİVİM

Yaddaşım toxunulmaz,
Arxiv sənədlərimdir.
Yaddaşımı tez-tez
Varaqlayıram.
Köhnəlmiş yaddaşımı
Təzələyirəm,
Sevib əzizləyirəm.

Köhnə yaddaşıma
Yenisini
əlavə edirəm.
Yaddaşımı təzələyirəm,
Toxunulmaz, əlçatmaz
Arxivim olur.

***2011***

## GECƏNİ CƏZA BİLDİM

Bu gecə,
Nə yata bildim,
Nə şeir yaza bildim:
Gecəni-gecəmə
Cəza bildim.

***2011***

## YOLU DÜZ SEÇMƏDİK

Avropaya yol açdıq,
Nənədən, babadan
Uzaqlaşdıq.
Yolu düz seçmədik,
Ulu yolu getmədik.
Nəvələr şoulaşdı,
Şoulara qarışdıq.

***2012***

## DEMƏ CƏFƏNGİYATDIR

Demə söz də, şeir də
Cəfəngiyatdır.
Babalar:
Sözü-sözdən süzdü,
Sözə-söz düzdü.
Bulaq gözlü şeirlərdən
Bulaq pıçıltılı
Poeziya yaratdı.

***2011***

## YARPAQLAR

Neçə ki, deyilməyib,
Söz ölüdür,
Elə ki, deyildi.
Yaz gülüdür,
Avaz gülüdür.

* * *

Qılınc qında-yuxuludur,
Qından çıxdı, qorxuludur.

***2012***

$

## ALLAHIM

Allahım!
İnsanlara
Sevinc də vermisən,
Kədər də vermisən.
Şirini, acını
Dadın demisən.
İnsanları şirinli-acılı
Həyata
Məcburi məhkum
Etmisən.
Şirinli-acılı həyatı
Sevdirmisən.

***2012***

## MƏNƏ BELƏ GƏLİR

Sizi bilmirəm,
Mənə belə gəlir ki,
Şeirlərimi
Şeirlərlə tutuşdursanız,
Şeirlərim-heç kəsə
Oxşamayacaq.
Şeirlərim ancaq - ancaq
Özümə oxşayacaq.

***2011***

## NƏ BİLMƏK OLAR?

Kim deyir,
Dünya yalandır?
Dünyanın işini
Nə bilmək olar?
Dünya-dünya boyu,
Bir yandan açılan,
Bir yandan solandı.
Bir yandan boşalan,
Bir yandan dolandı.
Bir yandan yaranan,
Bir yandan da,
Yaradandır.
Zamanın zərbəsi altda,
Qapazı pəncəsi altda
Daşlar quma dönür,
Qumlar daş olur.
Zamanın zövqünə görə,
Hökmünə görə,
Yarananlar, yaradılanlar
Çıxdaş olur.

***2011***

$

## BƏLKƏ, İNSANLAR

## DARQURSAQ OLUB

Boğazdan yuxarı
Söz demək asan,
Boğazdan aşağı
Söz demək olmur.
Ya söz qiymətdən düşüb,
Ya da insanlar
Darqursaq olub.

***2011***

## QIRĞIN OLAR

Hamı həqiqət gəzir,
Hamı həqiqət axtarır.
Həqiqət haqlı yerə,
Seyflərdə, arxivlərdə
Saxlanır,
Ömürlük həbsdə qalır.
Həqiqət var, həbsdən
Qurtulsa,
Qan tökülər,
Qırğın olar.

***2010***

$

## HƏYAT DA BİR MÜƏLLİMDİR

Həyat insana
Həyat dərsi verən
Həm çox qoca,
Həm də çox cavan
Bir müəllimdir.
Necə yaşamağı,
Necə davranmağı,
Həyat-həyatda
Diqtə edir.

***2012***

## ARTİST ÖZÜ - ARTİST SÖZÜ

Bu üz artist üzüdür,
Bu göz artist gözüdür,
Bu söz artist sözüdür.
Səs var, söz var, üz var,
Göz var.
Hamısı uydurmadır,
Hamısı qondarmadır:
Bura səhnədir,
Artisti çoxdur,
Ortada fərd özü yoxdur.
Hər şey uydurmadır:
Hər şey qondarmadır:
Əslində - əsli də yoxdur.
Nə deyilir - uydurmadır,

Nə görürük-qondarmadır.
Səs-var, söz-var, üz-var
Göz - var, özü yoxdur.
Nə deyilir-deyilsin,
Deyilənlərin düzü yoxdur.
Bura səhnədir, qardaş,
Hamı artistdir
Fərd özü yoxdur.

## SÖZ SƏRGÜZƏŞTLƏRİ

Söz-özü yanmır,
Atıldığı ünvanları,
Ünvanlarda yaşayan
İnsanları yandırır,
Öz başına dolandırır.

* * *

Söz insanları ovlayır,
Öz ətrafına toplayır.

* * *

Söz-özü yanmır,
İnsanları yandırır.

***2013***

$

## TANRI ƏTƏYİ

Görüb bəndələrin
Azğınlığını,
Tanrı ətəyini
Çəkərsə Yerdən,
Əlləri göydən,
Ayaqları Yerdən
Üzülən bəndələr,
Qorxu-təlaş içində
Asılar Tanrının
Ətəklərindən.

***2012***

## FƏTH ETMİŞ OLARSAN

Hər qadın,
Qadınlığıyla
Özgə bir dünyadır,
Özəl bir dünyadır.
Hər qadın
Başdan ayağa,
Ayaqdan başa
Gözəl bir dünyadır.
Bu gözəl dünyanın,
Bu özəl dünyanın
Orbitinə yol tapsan,
Dərdinə-sərinə qalsan,
Həmdərd, həmsöhbət olsan,

Bu gözəl dünyanın
Özəlliklərini,
Gözəlliklərini
Fəth etmiş olarsan.

***2013***

## “ALLAHU-ƏKBƏR” DEYƏ-DEYƏ

Ərəblər hər gün,
Namaz qılır,
Kəlmeyi-şəhadət deyir,
Tanrıya sığınır.
Tanrıya sığına-sığına
Özləri-özlərinkilərilə
Vuruşur.
Özləri-özlərinkiləri
Qırır-çatır.
Məhəl qoymurlar
Qurani-Kərimə,
Məhəl qoymurlar
İslamda - "Olar-olmazlara".
Əl qaldırıb göyə,
“Allahu-əkbər” deyə-deyə
Başlayırlar
Özlərinkilərini öldürməyə,
Özlərinkilərini qırmağa.

***2012***

## "ƏRƏBİN DƏVƏSİ ÖLDÜ"

Ərəbin dəvəsi öldü,
İtlər, quzğunlar
Yığışıb bayram etdi,
Ərəb üz tutub,
Səhraya getdi.
Dəvənin ərəbi öldü,
Yenə itlər, quzğunlar
Hər yandan,
Tökülüb gəldilər
Sahibsiz dəvəni,
Didib yedilər,
Daha ərəb dünyası
Bizimdir dedilər,
Amma onlar
Böyük səhv elədilər.

***2011***

## ÇAĞIRILMAMIŞ QONAQ

Bu gün tezdən oyanmışdım,
Kefsiz-kefsiz dayanmışdım.
Qəflətən,
Çağırılmamış qonaq təki
Bir şeir
Ağlıma gəldi-sevindim.
Qələmi bayraq etdim,
Aldım ələ
Qonağı qarşıladım
Bayraq-qələmlə.

***2013.***

## FİKİR YÜKLÜ ŞEİRLƏR

Fikir yüklü şeirlərim,
Ölçüdə-biçidə,
Həcmində, çəkidə,
Vəznində
Rübai boydadır.
Bu şeirlər
Sədd tanımaz,
Sərhəd tanımaz...
Dünya səddə dönsə də,
Dünya sərhədə dönsə də,
Sərhədçilər
Ayıq-sayıq olsa da,
Sərhəd boyu ayağa qalxsa da,
Sudan, qurudan, havadan
Yollarını kəsə bilməz.
Şeirlərim
Rübai boydadır.
Kiçik həcmli
Bu şeirlərdə:
Senergetik sirli
Sözlər gizlənir.
Sinergetik sirli sözlər-
Gizlənmiş şeirlərdən,
Sinergetik fikirlərin
Qoxusu gəlir.

***2012***

## ÖLMƏK ASANDIR, YAŞAMAQ ÇƏTİN

Dinc bir həyata
Görən kimlər daş atdı;
ərəblərin
qəzəbini oyatdı,
dincliyinə haram qatdı.
İndi bu dünyada,
Hara gedirsən,
Hara baxırsan
Qəzəbdir, kindir.
Bilmək olmur,
Ölən kimdir,
Öldürən kimdir.
Belə bir dünyada,
Ölmək asandır,
Yaşamaq çətin.

***2011***

## YETGİNLİK

Yetginlik üçün:
Bir az zaman fasiləsi,
Bir az günəş şüası,
Bir az su saflığı,
Bir az torpaq hərarəti,
Bir az Tanrı məhəbbəti,
Bir az vicdan,
Bir az da qeyrət

Gərəkdir.
Onda insanda - insanlıq,
Yetginlik cücərəcəkdir.

***2012***

## TƏRS-AVAND İŞLƏR

Bu dövrdə:
Qurd qoyunu yemir,
Qoyun qurdu yeyir.

* * *

Qaz aldım yolmağa,
Cücələri yoldu məni.

* * *

Tərs-avand dünyanın,
Tərs-avand
Astarından, üzündən
Bal çəkir
Tərs-avand işləyən
İşgüzar
Bal arıları.

$

## BÖYÜYÜR

Əlimə qələm alanda,
Söz qayğısına qalanda:
Əvvəl gözlərim böyüyür,
Gözlərimin önündə
Sözlərim böyüyür,
Sözlərimə qoşulub,
İzlərim böyüyür.
İstəyirsiniz
Farağat durum,
Farağat oturum
Qələmi əlimdən alın.
Qələmi alsanız:
Gözlərim kiçiləcək,
Sözlərim kiçiləcək,
İzlərim kiçiləcək
Hər şey kiçilib, kiçilib
Yox olacaq.

***2012***

$

## YÜNGÜL YÜK DEYİL

Ömür-ömrə yüngül yük deyil,
Bu yükü məcbur daşımalıyıq bil.
İnsanı yaradan Tanrı:
Dünyanı insanlara kirayə verib.
Dünya insanların kirayə evidir,
Dirinin həyat, ölünün qəbir yeridir.
Tanrı ömürə-ömür boyu
Qıfılbənd deyər,
Bəndəsi aça bilməz.
İnsan hər şeydən qaçar,
Bəxtindən qaça bilməz.
Dünya tör-töküntü,
Dünya yır-yığış yeridir:
Tökdüyünü yığ,
Yığdığını tök,
Dünya baxış yeridir,
Dünya Tanrıya alqış yeridir.
Dünya qüruba gedir,
Zamanın saatı çox geridir.
İstər uşaq olsun, istər böyük,
Ömür karvan, dünya karvansaray,
İnsanlar dünyada kirayənişindir.
Kirayə haqqı canla ödənilir,
Ömrə halallıq gərəkdir indi

***2012***

$

## AMİN

Allah bizi bağışlar:
El-oba da alqışlar.
Avazımız xoş olar,
Oxuduğumuz - Quran,
Yazdığımız şeir olsa.

***2012***

## ALLAH BİLİR

Dünyadan nə almışam,
Dünyaya nə vermişəm,
Təkcə Allah bilir.
Dünyaya
Verdiyimlə, aldığım
Bərabərdirsə,
Dünyaya heç nə
Verməmişəm,
Dünyaya əliboş gəlmişəm,
Dünyadan əliboş
Gedəcəyəm.

***2012***

$

## SƏN DEMƏ

Sən demə
Ərlə-arvad
Bir bezin qırağıdır.
Arvad-ərin
Gülü çiçəyi,
Ər arvadın,
köklü-köməcli
dayağıdır.

***2012***

## TƏRTƏR RAYONU

***Qardaşım nəvəsi üç yaşlı Züleyxanın dedikləri:***

İstidən yorulmuşam.

* * *

Əllərim gülür.

* * *

Sahilə gedəndə, dənizi tutub saxlayacağam.

* * *

Anam işləməkdən, mən yatmaqdan
yoruluram.

* * *

Bu qız
Gah əlləri gülür,
Gah da, istidən, yatmaqdan
Yorulur bu qız.

## CƏSARƏT

Dənizə gedəndə,
Dayazdır, dərindir
Baxmayacağam,
Dənizi tutub,
Saxlayacağam.

***2012***

## YETİM UŞAQ KİMİYƏM

Qarabağsız -yetim,
Laylasız böyüyən
Uşaq kimiyəm.
Qarabağsız
Anasız,
Mayasız
Böyüyən uşaq kimiyəm.
Qarabağsız
Yurdsuz, yuvasız,
Meşəsiz, dağsız,
Arxasız böyüyən
Uşaq kimiyəm.
Qarabağsız:
Dörd yol ayrıcında
Arzuları talanmış,
Odda bişmiş,
Alovda yanmış,
Fəryadı ərşə dayanmış,

Gözlərində dünya qaralmış,
Tək-tənha qalmış
Uşaq kimiyəm.

## BİZƏ GÖRÜNMÜR ONLAR

"Yox" - bildiklərimiz,
Dünyada çoxdur:
Hər yanda,
Hər yerdə var.
Sadəcə biz görmürük,
Bizə görünmür onlar.

***2012***

## KİM NƏ EDİR, ÖZÜNƏ EDİR

Çox da razı deyiləm,
Özüm-özümdən.
Mən səni başıma
Tac eləmişdim.
Tac təki başımda
Dura bilmədin,
Qarışıb göz yaşlarıma,
Düşdün gözümdən.

$

## LOVĞA QARĞALAR

Tutubdur şəhəri,
Lovğa qarğalar.
Şəhərdə qarğalıq
Etməyə nə var?!
Şəhərin qapıları
Sirr saxlamaz,
Otları cücərməz,
Suları axmaz,
Tüstüsü qalxmaz...
Belə şəhərlərdə
İt yiyəsinə,
Yiyəsi də itinə baxmaz.

## KÖRPƏLƏR

Körpələr
Doğulan kimi
Ağlamaqla
Üsyan edir.
Paltarı nəm olanda,
Yeməyi kəm olanda,
Tək qalanda,
Ağlamaqla,
Hay-həşir salmaqla
Hər şeyə,
Evə-eşiyə

Səs salıb
Üsyan edir
Körpələr.

***2013***

## DÜNYA - XEYİR-ŞƏR MAĞARI

Dünya
Xeyir-şər mağarıdır,
Gəlib-gedənlər var,
Gələnlər qədər də
Gedənləri var.
Gələnlər olmasa,
Mağar dünya
Boş qalar.

***2013***

## ADİ HƏQİQƏTLƏR

Suluçuxur
"Su axar, çuxuru tapar"
Suyun çuxurla nə əlaqəsi var?
Su çuxura axar,
Çuxurda qalmaz...
Hər su axan çuxur da,
"suluçuxur" olmaz.

$

## DÜZ DEYİRLƏR

Düz deyirlər,
"Dünya yalan dünyadır"
Hər şey verib, aldadıb
Sonra alan dünyadır.
Kiminə tac-taxt,
Kiminə palan-dünyadır.

***2013***

## BİRİNİN

Birinin
Nüfuzu-nüfuz edir.
Ürəklərə
Birinin çörəyi, duzu
Nüfuz edir
Ürəklərə.
Birinin də
Astarı, üzü nüfuz edir
Ürəklərə.
Şairin də
Şeri, sözü nüfuz edir
Ürəklərə.

## ÇİNAR ƏKƏK

Çinar əkək, çinarlarla
Fəxr edək,
Çinarlar kəndimizin
Başucalığıdır.
Əkək çinarları,
Sevək çinarları,
Çinarlar kəndimizin
Gəncliyidir, qocalığıdır.
Çinarlar kəndimizin
Başucalığıdır,
üzağlığıdır.

## ZAMAN VƏ MÜHİT

Əsrlər boyu,
Zaman-zamanı gələndə,
İgidlər doğur.
Mühit-mühit çərçivəsinə
salıb,
İgidləri boğur.
İgidlər qayalaşır
donur.

***2012***

## RUH YOX OLUR

Ömrün sonunda
Vaxt daralır,

Qan qaralır,
Tədbir tükənir,
Səbir tükənir,
Göz xumarlanır,
Süzülür, solur.
İnsan ruha çevrilir,
Ruh da yox olur.

***2012***

## QƏLBƏ ÇATMADI

Dodaqdan qəlbə,
Uçdu bu sevgi,
Dilə-dişə ilişdi,
Qəlbə çatmadı.
Ürək sevgiyə
Həsrət qalsa da,
Yatmış bu sevgini
Heç oyatmadı.

***2012***

## TƏZAD

Sən onu sevirdin,
O, özgəsini,
Sən onun özünü
sevirdin,
O, özgənin kölgəsini.

***2012***

## FÖVQƏL TANIŞLIQ

- Sən məni tanıyırsan?
- Tanıyıram!
- Tanıyırsan? Necə?
- Necə varsan, eləcə.

***2012***

## QƏLBİMİZ KAİNAT KİMİDİR

Dərdlərimiz susan vulkan
Kimidir.
Püskürsə,
Ölü nəğmələr də diriləsidir.
Qəlbimiz kainat kimidir;
Bir yanında
Tufanlar cövlan edir,
Bir tərəfində hamını
Bahar fəsli heyran edir.
Bir tərəfində gecə -
Ulduz-ulduz çiçəkləyir,
Ay, ulduzları salama gəlir.
Bir yanında da səhraları susur,
meşələri küləkləyir.
Başımız Yer kürəsi kimidir
Çiynimizin cazibəsində
fırlanır.
Bulaqları, çayları
Qan damarları,

Ulduz meşələri,
Gecələrinin nəğməsidir.
Qəşəm Çıraqlı da
Öz şeirlərinin köləsidir.

***2012***

## ENERJİLİ SÖZLƏR

Sözün də enerjisi var,
Enerjisi çox olan sözlərin,
Oxucusu da çox olar.
Enerjili sözlərlə
Yazılmış şeirlər,
Qızıl tana olub,
Qulaqlardan asılar.
Şerin də öz
Enerjisi var,
Enerjili sözlərdən
Yazılmış misralardan,
Enerji yüklü
Şeir doğular.

***2011***

$

## ATALAR, DÖYMƏYİN QADINLARINIZI

Atalar,
Döyməyin qadınlarınızı,
Qoruyun
Öz gələcəyinizi.
Baxın,
Ana gözlərindən süzülən,
Hər damla göz yaşına,
Ox olub sancılır,
Övladların yaddaşına.

***2011***

## NAMAZ QILANDA

Namaz qılanda
Namaz qılırıq,
dua edirik,
Duada səhv edirik.
Tanrı gülümsəyir
Bəndələrinin
Naşılığına,
Nadanlığına.

## MÜHAZİRƏ

Alim
Ailə haqqında
Mühazirə oxudu,
Alimin öz ailəsi
Heç yoxudu.

## SÖZ DEYİLƏNDƏ

Söz deyiləndə,
Vaxtına çəkər,
Söz vaxtı,
Vaxt da sözü çəkər,
Dil tapıb
Razılaşarlar.

## DESƏM, XƏYANƏT OLAR

Uzaqda olsan da,
Uzaqdan-uzağa
Sevirəm səni.
Ancaq bu sirri
Sənə də demirəm.
Sənin bəxtiyarlığına
sevinirəm.
Bu sirri heç kimə demirəm.
Desəm
Sevgimizə
Xəyanət olar.
Sevginin müqəddəsliyi
Pozular.
Bu sirri - sirr kimi
Saxlamaq üçün,
Bir daş altda,
Bir daş üstdə:
İki daş arasında
Saxlamaq olar.

## FİKRİ ÇƏRÇİVƏYƏ SALMAYAQ

Şeir yazaq,
Fikri çərçivəyə salmayaq.
Çərçivəyə salınmış fikir -
Qəfəsə salınmış bülbül kimidir.
Çərçivəyə salınmış fikir
Dərilmiş, vazaya qoyulmuş
Gül kimidir.
Şeir yazaq,
Şeri çərçivəyə salmayaq.
Qoy, şerin meydanı geniş olsun.
Şerin yollarında,
Həm eniş, həm də yoxuş olsun.
Şeirə, uçmağa qanad verək,
Çapmağa at verək,
Hara istəsə uçsun,
Hara istəsə çapsın.
Şerə sərbəst həyat verək,
Şeri cilovlamayaq,
Şeri çərçivəyə salmayaq,
Şerə azadlıq verək,
Çərçivələri qırsın,
Sərhədləri uçursun.

$

## DƏNİZ DALĞALANANDA

Dəniz dalğalananda,
Dalğa-dalğanın
Dayağı olur,
Dalğa-dalğanın
Ayağı olur.
Ayaq açan dalğalar
Dalğa-dalğa, sahilə qaçır.
Ayaq açan dalğalar,
Dalğa-dalğa
Dənizin yaxasını açır.
Dalğa-dalğa,
Təzə gələn dalğalar,
Dalğa-dalğa
Köhnələri əvəzləyir.
Dalğa-dalğa
Təzə gələn dalğalar,
Köhnə dalğaları əzizləyir.
Elə ki, dalğalar
Sakit olur, susur,
Dəniz dincəlir,
Dənizə ikinci nəfəs gəlir.

***2012***

$



6. - 3662

## BU DÜNYAYA YAYIRAM

Günlər məni saymasa da,
Mən günləri sayıram.
Güllər məni saymasa da,
Mən gülləri sayıram,
Qönçələrdən ətir çəkib,
Küləklərə paylayıram,
Bu dünyaya yayıram.

## HƏR KƏSİN ÖZ YOLU, ÖZ YERİ VAR

Bu dünyaya gələn gündən,
Hər kəsin öz yolu,
Öz yeri, öz izi var.
Ölümə məhkumdur,
Öz yolu, öz yeri, öz izi
Olmayanlar.
Biz bir zamanın,
Bir məkanın adamlarıyıq.
Bir zamanda, bir məkanda
Addımlayırıq.
Sudan duruyuq,
Aydan arıyıq.
Yerimiz, yolumuz, izimiz
İt-bata düşməz.
İzimiz
Baş alıb gedir:
Yolunu - izindən,

İzini yolundan
Ayıra bilmir.
İzimiz yerimizin,
Ətrafında fırlanır.
İzimiz - yerimizdən,
Yerimiz - izimizdən
boylanar
Yerimizi, izimizi silməyə
Cəhd etsələr
Yerimizi - izimizi
İtib-batmaqdan
Qoruyar.

***2011***

## ŞEİR NƏDİR...

Şeir dediyin,
Sirr quyusu,
Sirlidir quyunun
suyu.
İçənlərə
Ömür-gün xoş olur,
İçməyənlər
Ömrü boyu
Sərxoş olur.
Şeir ürək yandıran
su,
Şeir ruhu canlandıran
su,

Ürəkdir onun quyusu,
Ürəkdir suyun quyusu.
Quyu ürəkdən su içənlərdə
Sevgi-məhəbbət çox olur
İçməyənlərdə
Sevgi ağacı çiçəkləyir,
Çiçəkləri tez solur.

## ŞEİR YAZANDA

Hər şeir yazanda,
Özüm-özümə həm tənqidçi,
Həm də məsləhətçi oluram.
Tənqidçi - mənlə,
Məsləhətçi - mən,
Məni dara çəkir.
Dayanıb dar ağacının önündə,
(Ölçüb-biçib) söz bağrını yarıram,
Tənqidçi - mənlə, məsləhətçi məni,
Sülhə, barışığa çağırıram.

***2013***

$

## UŞAQ - MƏNTİQİ

Səndə olan yaş,
Məndə olanda,
Yalanlarım da
Düz olar onda.

## HƏQİQƏT

İnsan - insandır,
Tanrı deyil,
Hər vaxt, hər yerdə
Yanıla bilər.

***2013***

## XOŞBƏXTLİK

Xoşbəxtlik
Gözəl həyat yüküdür -
Qorunmasa
Göz dəyə bilər.
Xoş gündə,
Xoşbəxtlik ipi
Boş tutulanda
Hardasa, nə vaxtsa
Xoşbəxtlik yükü
Əyilə bilər.

***2013***

## DÜNYA SƏNİN OLAR

Hər varlığın,
Canlının, cansızın
Öz dili var,
Öz dilində danışar.
O dilləri öyrənə bilsən,
Dünya da sənin olar.

## DEMİRƏM

Bilmirəm,
Necə edim ki,
Yerdən göyə,
Göydən yerə
Uzansın yolum,
Ucalsın səsim,
Həm bəndələrin,
Həm də Tanrının
Xoşuna gəlim,
Müqəddəs olum.

$

## TANRI DİLİ

Ərəb dili,
Tanrı dilidir:
Canlıdır, müqəddəsdir,
Sehrlidir,
Sirlidir,
Diridir.
Türk dili -
Bülbül dilidir;
Çiçək dilidir,
Gül dilidir,
Tanrının sevdiyi
Dillərdən biridir.

***2013***

## ÜRƏK TƏKİ DÖYÜNÜRƏM

Gözlərə girmirəm,
Qulaqlara dürtülmürəm.
Qeybət nədir bilmirəm,
Yaxşını, pisi görürəm.
Sözdən çələng hörürəm,
Ürək təki döyünürəm.
Sevinc, kədər püskürürəm,
Cənab sözə baş əyirəm.

***2013***

## ÜMİD ALLAHA QALIR

İndi elə andayıq,
Əl-amandayıq.
Mollalar çoxalmayıb,
Mollalıq edənlər çoxalıb
Ümid Allaha qalıb.

## PUL

Pul - qılıncdan
Kəsərlidir,
Ordudan sərfəlidir.
Döyüşdə
Qələbənin təməlidir.

## ŞEİR SATIRAM

Şeirlərim
Dadlı olsun deyə,
Duz vururam,
Bibər qatıram.
Sonra
Sinəmdə ocaq çatıram,
Şeir
Bişirib satıram.

***2012***

## TÖKMƏ, KÖHNƏ PALAN İÇİ

Tökmə köhnə palan içi,
Köhnəlmiş yalan içi:
Sökülüb, açılıb
Çıxanda üzə
Yeni həqiqət təki
Sırınar bizə.

***2013***

## HƏYATİ MƏNTİQ

Namusu, qeyrəti
Olmayanları,
Həyatda gözləməz uğur.
"Daldada kələyə gələn
Açıq-aşkarda doğur".

## QƏLB

Qəlb - qəlbdir,
Qəlbin - qəlpi olmur.
Qəlbin yükü,
Ləldir, incidir.
İnsanın ucalığı,
Qəlbin sevincidir.

***2013***

## BU YOL

İstəyirsən, inan,
İstəyirsən inanma:
Gəldiyin yol,
Qayıtdığın yol olacaq.
Gəldiyin yol,
Qayıtdığın yola
Başlanğıc olduğu kimi,
Həm də sonuncu olacaq.
Səni son mənzilə
Aparacaq.

## SAĞLAMLIĞIMIZIN KEŞİKÇİSİ

İnsan əlinə düşəni,
Əlinə keçəni
Mədəyə atır,
Mədə zərərliləri,
Zəhərliləri
Geri qaytarır,
İnsanı ölümdən
Qurtarır.

***2012***

$

## GƏL ŞƏRTLƏŞƏK

Tənqidçi qardaş,
Gəl şərtləşək,
Bir şərt kəsək:
Mən şeir yazım,
Sən şərh elə,
Sənət yollarını
Axtaraq belə,
Tapaq belə.

## QİSMƏTİMƏ DÜŞƏN AD

Oturmuşam,
Söz çayının
Sahilində.
Qarmaq atıram,
Söz çayına.
Qarmağıma bəzən
Qızıl balıq,
Bəzən də xəşəm düşdü.
Mən də dünyaya
Hamı kimi gəldim.
Ad qoyulanda.
Qismətimə - ad
Qəşəm düşdü.
Adım dodaqlarda
Bal oldu, qaymaq oldu.
Sonralar,
Çıraqlı sözü də,
Adıma bir dayaq oldu.

***2013***

## MÖCÜZƏLƏR DOĞULUR

Elə ki, gəlir bahar,
Yerlə-göy arasında,
Yeni-yeni
Möcüzələr doğulur.
Köhnələr,
Köhnədə qalır,
Təbiət çiçək-çiçək
Gözəlləşir, şirinləşir
Qayğılar çoxalır,
Arılar bal yığır.
İnsan qayğılarla
Yaşayır.
Qayğılar bar verir,
Barla sevinc yığılır,
İnsanlar sevinir,
İnsanların gözü doyur.

***2013***

## QAYĞI GÖSTƏRƏK

Ata, ana qayğısı
Görməyənlər,
Tək-tənha
Qalmasın gərək.
Onlara qoşulaq,
Həmdərd-həmsöhbət
olaq
Ata, ana qayğıları
göstərək.

## BƏXT ULDUZU

İnsan doğulanda,
Bəxt ulduzu
İnsanla doğulur,
Kiminin bəxt ulduzu
parlaq,
Kimininki solğun
olur.
Bəxt ulduzunu,
Daha parlaq
Görmək istəyi
İnsanın gözünü
Yolda dondurur.

## SEVGİ HƏDDİNİ QORUYAQ

Ömrü çatdırırıq
Elə həddə,
Yaddan çıxır
Sevgi də,
Məhəbbət də.
Sonra xəyala varırıq,
Sonra səbəbkar,
Günahkar axtarırıq.
Sonra yoruluruq, bezirik,
Sonra həmdərd, həmsöhbət
Gəzirik.
Heç kəsi sevə bilmirik.

## İTLƏR GÜLƏR

Alimi it döyən ölkənin,
Şairi acından ölər.
Ölkə-ölkə olmayanda,
Küçə itləri də
Alimə, şairə gülər...

## "UMAN YERDƏN KÜSƏRLƏR"

İnsan yaşlaşdıqca,
Yaşı artdıqca,
Demək istədiyi sözü,
"Yüz ölçüb, bir biçsə də",
Yaxşını pisdən,
Pisi yaxşıdan,
Dəqiq seçsə də,
Yenə,
Hardasa, nədəsə,
Lap özü istəməsə də,
Kobud bir səhvə
Yol verir.
Dostlar, doğmalar
Bu səhvi
Daha tez görür,
Daha çox inciyir,
Daha çox küsür.
Belə yerdə

Hər kəsin yadına
Bir məsəl gələr:
"Uman yerdən küsərlər".

***2013***

## SÖZ DEDİM

El səviyyəsində,
Söz dedim,
Bilən - bildi
Bilməyən də
Biləcək, -
Bilməyənlərə deyəcək.
Artırmadım, azaltmadım
Sözü - söz səviyyəsində
Sözü - öz səviyyəsində
Dedim.

$

## "ƏL-ƏLİ YUYAR"

"Əl-əli yuyar",
Sonra əl üzü yuyar,
Əldə, üzdə çirk qalmaz.
Natəmiz əllər, dillər
Sözü yuyanda
Üz də təmiz olmaz,
Ürək də, təmiz olmaz.
Ürəkdəki,
Söz də təmiz olmaz.
    Olmaz!
        Olmaz!
            Olmaz!

***2012***

## BEYNİMDƏ BİR İŞIQ YANIR

Beynimdə bir işıq yanır,
Yanır,
Fikirlərim işıqlanır,
İnanıram işıqların,
Tanrı əmrilə yandığına,
Fikirlərimin işıqlandığına.

***2011***

$

## KİŞİ

Kişi - kişidir.
Kişi Vətənin, ailənin
Qayğıkeşidir.
Kişi Vətənin, ailənin
Dayağıdır,
Əlsizlərin - əli,
Ayaqsızların
ayağıdır.
Kişi - kişidir:
Vətəni: ailəni qorumaq,
qorumaq,
Kişilərin
Müqəddəs işidir.

***2011***

## NƏ OLSUN

Nə olsun,
Günəş Şərqdən çıxır,
Qərbdə batır.
Şərqdə də, Qərbdə də
Qadın - qadındır.
Qadının gücü,
Qadın olmağındadır.

$



7. - 3662

## SÖZ - SÖZÜ BOĞUR

Yerində, vaxtında
Deyilən söz -
Şöhrət doğur,
Yersiz-vaxtsız
Deyilən söz
Nifrət doğur
Söz - sözü boğur.

## ZAMAN DƏYİŞDİ

Zaman gəldi,
Gör nə yaman gəldi:
Buynuzsuz qoçlar,
Buynuz çıxardı,
Buynuzlu qoçların
Buynuzu sındı.
Fürsətlər -
Fürsət tapıb,
Meydana çıxdı,
Meydan suladı
Vicdan alverçiləri,
İnsan alverçiləri
Çoxaldı - bir əşya təki,
İnsanlar satıldı,
İnsanlar alındı...

***2012***

## İLDIRIM

İldırımdan - ildırım törədi,
Naqillərdə yuva qurdu.
Kim səhv etdi, səhv addım atdı,
Onu naqildə gizlənən
İldırım vurdu.

## SUSANDA, YAZMAYANDA

Susanda, yazmayanda
Deyirlər yazığın
Yazmağa sözü yox daha.
Bilmirlər ki, şair
Susanda, yazmayanda,
Dua edir,
Şeir oxuyur Allaha.

***2013***

## İNDİ HƏR KƏS

İndi hər kəs
Közü öz qabağına
çəkir.
Yaxşı, pis əməllərini
Söz ayağına çəkir.
Qaradı, ağdı
Fərqinə varmır
Üz-ayağına çəkir.

## HƏQİQƏT ÜZƏ DEYİLMİR

Həqiqət hər vaxt,
Hər yerdə üzə deyilmir,
deyilsə,
İçində maskalanmış,
Daldalanmış
Digər həqiqət də var:
Açıqlansa,
Biri-digərini
Edəcək inkar.

***2010***

## DƏYİŞİB ZAMAN

Ay aman,
Gör necə
Dəyişib zaman!
Cücə-fərələr
Yumurtadan
çıxan kimi;
Bazara varır,
Özünə
Xoruz axtarır,
Hin axtarır...

***2010***

## QOVUŞSA BİRDƏN

Yazırlar:
Hər şeydən yazırlar,
Göydən, Yerdən yazırlar.
Yazırlar:
Göy Yerlə birləşsə
Birləşsə birdən,
Aralıqda ölərik biz.
Diriykən Cəhənnəmi
Görərik biz.
Ölərik, dirilərik,
Yenidən dünyaya,
Gələrik biz.

## İLAHİ SƏS

Dünyanın hər yerindən,
İslam ölkələrindən
İlahi bir səs gəlir:
Səs gündə beş dəfə
Məscidlərdən yüksəlir.
Bu səs azan səsidir,
Bu səs islam dünyasına
Tanrı töhfəsidir.
Bu səs
Duman təki ucalır,
Yağış təki yağır,
İslam dünyasını
İbadətə çağırır.

***2013.***

## OCAQ

Ocaq - ocaqdır:
Ocağın
Tüstüsü də olur,
İstisi də olur.
Tüstüsü olmasa,
Ocaq yanmaz,
İstisi də olmaz.
Tüstü ocağın nəfəsidir,
Tüstü ocağın
Yanmaq həvəsidir.
Nəfəs varsa,
Həvəs varsa,
Ocaq-ocaq olacaq,
Tüstülənib-yanacaq.
İnsan da ocaq kimidir:
Yanmasa,
Tüstüsü də olmayacaq,
İstisi də olmayacaq,
İnsan ocaq
Yanmayacaq.

***2013***

$

## M.Ə.SABİRƏ

Sən,
Şairlər cərgəsində,
Hər vaxt,
Birinci olmusan.
Əskikliyi döyəcləyən,
Vicdan olmusan,
Qeyrət olmusan.
Şeirlərin dillər
əzbəri,
Misra-misra
Uzaq vuran top olmusan.

## DOSTA - DOST MƏSLƏHƏTİ

İnsanların qədrini bilsən,
Öz qədrini artırarsan, - sən,
Qədr gecəsinə dönərsən.

## DİQQƏTSİZLİK

İstəmədən,
        Bilmlədən,
                Görmədən
Elə səhvlər edirik,
Yaşayaraq bir ömür
O səhvləri
Düzəldə bilmirik,
Dünyadan günahkar
gedirik.

## ŞEİR VƏ GÜL

Gül - güldür,
Hər zaman, hər yerdə
Bitir, bitəcək.
Dərənlər, sevənlər
Olacaq, olmayacaq
Bilinmir.
Şeirin də taleyi
Gül kimidir:
Hər zaman
Yazılır, yazılacaq.
Oxuyanlar, sevənlər
Olacaq, olmayacaq,
Bilinmir.

***2013***

## HƏR ŞEY ÖZ YOLUNA DÜŞƏCƏK

Nə darıxın,
Nə keçirin təlaş,
Yaşayın, işləyin
Yavaş-yavaş.
Səbirli olun,
Səbrlə yaşayın,
Tədbirli olun,
Tədbirlə yaşayın,
Ay gözəl bacım,
Qoçaq qardaşım.

Bağ salın,
Ağac əkin,
Uşaq təki nazını çəkin:
Təzə-tər bar verəcək,
Doğmalar, dostlar sevinəcək,
Əhsən deyəcək.
Arzularınız çiçəkləyəck,
Hər şey öz yoluna
Düşəcək.

***2013***

## SÖZÜMÜN ÜSTÜNƏ ÖRTÜLMÜŞƏM

Özüm-özümü ötmüşəm,
Öz sözümü ötmüşəm.
İt hürən tərəfə getməmişəm,
İşıq gələn tərəfə getmişəm,
Söz gələn tərəfə getmişəm,
Özümə söz yolu seçmişəm.
Sözümü - söz mürgənələrindən
Qorumaq üçün,
Sözümün üstünə örtülmüşəm.

***2013***

$

**"Hər kəs yüz il yaşamasa, günah onun özündədir".**

**Osman Sarıvəlli**

Günləri, ayları saya-saya,
Dünyaya tədricən gəlirik.
Araq içirik, aş yeyirik,
Araq içirik, xaş yeyirik
Sağlıq deyirik,
Sağlığımızı tükəndiririk.
Dünyaya tədricən gəlsək də,
Dünyadan qəflətən gedirik.

## BİLİRƏM EVDƏSƏN

Bilirəm evdəsən,
Pəncərələri örtmüsən.
Sim-sim de, pəncərəni aç,
Aç üzünü görək,
Təzə Ay gördük deyə
Salavat da çevirək.

***2011***

## DÜNYAYA YÜK OLMAMIŞAM

Demirəm bu dünyaya
Bir yük olmuşam,
Yarı uşaq,
Yarı böyük olmuşam.

Hamı kimi doğulsam da,
Hamı kimi olmamışam.
Uşaqlarla - uşaq,
Böyüklərlə
Böyük olmuşam.
Yaşayıb - yaşa dolmuşam.
Sözü - sözə
Qaynaq etməyə,
Sözdə şeir bitirməyə
Hava alıb, alov püskürən
Körük olmuşam.

***2013***

## TANRIYA ŞÜKÜR EDƏK

Dilimizin zənginliyindən,
Ənginliyindən.
Bol-bol yarınaq.
Bu dilin
Söz xəzinəsinə
Baş vuraq,
Şeirlər qoşaq,
Faydalanaq,
Allaha şükür edək,
Əcdadlarımıza
Minnətdar olaq.

***2013***

## ÜNSİYYƏT

Hamı bir-birindən
Dolanır,
Hamı bir-birindən
Güc alır,
Enerji alır
Faydalanır.
Faydalı ünsiyyət
Ev yıxmaz,
“Tək əldən
Səs çıxmaz”.

***2013***

## ÖMÜR GÜDAZLIQ DEYİL

Ömür - ömürdür,
Tanrı verən paydır,
Yaşanılan - gündür.
Ömür - ömürdə
Siftə olsa da,
Ömür - ömürdə,
Müftə olsa da
Qayğısına qalmasaq,
Güdaza gedər - bil.
Ömür güdazlıq
deyil.

***2013***

## AİLƏLƏRƏ ATILAN BOMBA

Eheyy... Avropada yarışanlar,
Dünyada hər işə qarışanlar,
Bəsdirin,
Soxmayın gözlərimizə,
Qadınların
Kişilərlə bərabər
Hüquqlarını.
Qadın - qadındır,
Qadın bir anadır:
Qadın oynamalıdır
Ailə havasına,
Qadın çıxmamalıdır
Kişiylə çömçə-qaşıq
Davasına.
Kişilərin də
Kişi hüququ var,
Kişilik hüququ var.
Kişilər uymamalıdır,
Oynamamalıdır
Qərbin qadın havasına:
Uysa, oynasa -
Ailələr tuş gələcək
Qərbin ailə bombasına.

$

## NƏ BİLMƏK OLAR

Qara fikirləri,
Qara paltar təki
Əyninə geyən,
Yetənə - yetib,
Yetmədiyinə şər deyən
Şeytanların fitvasından
Nə bilmək olar;
Kim - kimin üstündən düşüb,
Kim - kimin altından çıxıb,
Kimlər böhtanla
Kimlərin evini yıxıb,
Nə bilmək olar?!

***2013***

## ÖZƏLLƏŞMİŞ SEVGİ

Sənə olan bu sevgi
Tutub gözlərimi,
Heç kimi görə bilmirəm,
Heç kimi sevə bilmirəm.
Sənə olan bu sevgi
Əsir götürüb məni,
Sənin kölən olmuşam.
        Sənə sadiq
Bir qulam, -
        Azadlığa
        Atma məni.

Bu sevgini
Özəlləşdir,
Heç kimə satma məni.

***2013***

## YAZDIĞIM ŞEİRLƏR

Yazdığım şeirlər
Yazmadıqlarımdan
Uğurludur:
Mandat təki əlimdədir,
Şüar təki dilimdədir,
İşıqlıdır, nurludur.

***2013***

## ÇIXIŞ YOLU AXTARMA

Giriş yolu yoxdursa,
Çıxış yolu da olmaz.
Giriş yolu
Olmayan yerdə
Çıxış yolu tapılmaz.

## NƏ ETMƏLİ?

Qalmışam
İki güclü - güc arasında
Fit çala-çala,
Mat qala-qala.
Ucalıq məni, ucalığa dartır,

Qocalıq tutub
Ayaqlarımdan,
Aşağı salır.
Ucalığa, gücüm çatmır,
Qartımış qocalığa
Dişim batmır.
Qocalıq
Müdriklik olsa da,
Ürəyimə yatmır.

***2013***

## ONDA

Onda heç
Uşaq da deyildim,
Bir sevgidən dirildim,
Bir sevgidən
Dünyaya gəldim.
Dünyanın sevgi
Dadını bildim
Heç belə dad
Görməmişdim,
Gördüm,
İmicimi dəyişdim.
Öz parama qovuşdum, -
Para idim bütövləşdim.

***2013***

$

## TƏHLÜKƏLƏR

Dünyada ən qorxulu təhlükələr
Tanrı qəzəbinə dönər,
Gözlənilməyən
Vaxtlarda gələr.
Təhlükələrin bəzisi Yerdən,
Bəzisi Göylərdən gələr.
Gəldiyi vaxtı, vədəni
Ancaq və ancaq
Ulu Tanrı bilər.

***2013***

## XƏYALA DALIB ŞEİR YAZMIRAM

Yol ayrıcında qalanda,
Boş-bekar olanda
Xəyala dalıb,
Şeir yazmıram.
Şeir dərgahına varıram,
Söz seçib, söz axtarıram.
Sözdə - şeir görəndə
Yazıram.

***2013***

$



8. - 3662

## "YÜK ƏYİLMƏSƏ, DAŞ QƏRİBLİYƏ DÜŞMƏZ"

(*Məsəl)*

Əsrlərlə
Yerin tarazlığı pozulanda
Tanrı göy daşlarına -
Kometlərə əl atır
Bir-bir, iki-bir Yerə atır,
Yerin tarazlığını saxlayır,
Göy daşları
Yerə gəlir,
Yerdə qəribsəyir.
Şairlər dünyada
Söz planetidir,
Qəlb yükləri əyiləndə,
Tanrı şairlərə
Şeir yazmağa
Söz göndərir,
Şair ilhama gəlir
Sözdən şeir dərir.
Sözdən şeir dərilməyəndə
Söz ürəkdə qalır,
qəribsəyir.

* * *

Yerdə, göydə
Yaranan hər şey,
Sıfırdan başlanır,
Sıfırla bitir.

Sıfırdan-sıfıra olan
Məsafədə yarananlar
Gec, ya tez
Haqqa yetir.

***2013***

## ŞEİRLƏRİMDİR

Mənim,
Yoxluğum,
Varlığım,
Bəxtiyarlığım,
Dünya ilə əməkdaşlığım
Yazdığım şeirlərdədir.

***2013***

## BİR LOXMA ÇÖRƏK

Çörəkdə enerji
Aşır-daşır,
Bir loxma çörək ye,
Dağları yerindən
Aşır.

***2013***

$

## İSTİSİ, KÖLGƏSİ OLMAYANLAR

Gəlişi gözəl
Deyilən söz,
Gözə görünüb,
Yoxa çıxan
Gözəl kimidir.
Gəlişi gözəl
Deyilən söz
İstidə kölgəsi,
Soyuqda istisi
Olmayan
Xəzəl kimidir.

***2013***

## FİKRİMİZİ DURULDURUQ

Fikir - fikirdir,
Çəkisi yoxdur,
Ölçüsü yoxdur.
Fikrə dalmağın,
Fikirli-fikirli
Yatıb-durmağın
Fəsadı çoxdur.
Fikir var,
Dərdi öldürür,
Fikir var,
Dərdi dirildir.
Qəmli fikirlərin

Dərd caynağından,
Qəm qarmağından
Qurtula bilsək,
Allaha şükür edək.

* * *

Ömür boyu
Yol gedirik,
Yoruluruq, -
Dayanaraq, dururuq,
Fikrə dalıb,
Fikrimizi duruldururuq.

***2013***

## PAÇAL NAR OLDU

Ürəyim həsrətdən
Paçal nar oldu.
Əlim çatmadı,
Ünüm yetmədi
Qarabağa,
Dünya başıma
Dar oldu,
Bizə nə oldu,
Bədnam qonşulardan oldu.

$

## ELƏ Kİ, TƏKLƏNİRƏM

Elə ki, təklənirəm,
Acı, şirin xəyallarla,
Fikirlərlə yüklənirəm.
Fikir var, bar ağacıdır,
Fikir var,
Dar ağacıdır.
Fikir də var;
Yeməli deyil,
İçməli deyil
Həqiqətdən acıdır.

***2013***

## KÜLƏK AZADLIĞI

İstədi,
Əsdi külək,
İstəmədi,
Kəsdi külək.
Kim nə deyə bilər
Küləyə?
Dünyada sərbəstdi
Külək.
Ağası küləkdir
Göyün, Yerin.
Mənə külək
Azadlığı verin.

***2013***

## YERİNİ BİLƏN DÜNYA

Bu dünya
Həmən dünyadır,
Birinə - ağlayan,
Birinə - gülən
Dünyadır.
Güləni ağladan,
Ağlayanı
Güldürən dünyadır.
Ağlatmağın, güldürməyin
Vaxtını, yerini
Bilən dünyadır.

***2013***

## SİQNAL SƏSİ

Salamdan öncə
Bahalı maşından,
Siqnal səsi gəldi.
Diqqətlər
Bahalı maşına
Yönəldi:
Bahalı maşının
Siqnal səsi,
Salam sözünü uddu...

$

## TÜRK DİLİNDƏ DANIŞAQ

Quşlar nəğmə oxuyur,
Quş dilində.
Quşların nəğməsi
Bahar qoxuyur.
Uçaq quşlara qoşulaq,
Uca budaqlara qonaq,
Quşlarla yarışaq,
Quş dilində oxuyaq,
Türk dilində danışaq.

***2013***

## YARPAQLAR

Sıfır -
Dünyanın əvvəli,
Sıfır -
Dünyanın sonudur.
Fəza -
Yerin dayağı,
Fəza -
Yerin zirehidir.

* * *

Yanmıram ki,
Yandıram,
Yanıram ki,
Ölmüş vicdanları
Canlandıram.

***2013***

## SEÇKİ

Seçki zamanı o,
Tanrının yox
Xalqın ətəyindən
Dördəlli tutdu,
Elə ki, seçki oyunu
Baş tutdu,
O, xalqı da,
Xaliqi də unutdu.

## SÖZDƏN HEYKƏL QOYULSUN

Hər gün,
Şeir yazanda
Bismillah deyək,
Şeir müqəddəs olsun.
Şeirlərin sonunda
Şerə, sözdən
Heykəl qoyulsun.

***2013***

## İMANA GƏLDİN

Söz adamıyam,
Əzilib, nazilib
Sözə döndüm.
Oda döndüm,

Közə döndüm.
Sözlə əyilib,
Sözlə düzəldim.
Sözlə imandan
Qaçdım,
Sözlə imana gəldim.
Sözlə öldüm,
Sözlə dirildim
Sözün qədrini bildim.

***2013***

## TANRI SOVQATI

Tanrı sovqatı
Bu gözəl ömrü,
Bu özəl ömrü
Necə yaşamağın
Açarı
Öz əlimizdədir.
Bu gözəl ömrün,
Bu özəl ömrün
Qədrini bilək.
Bəhanə axtarmayaq,
Dalaşmaq üçün.
Bəhanə axtarmayaq,
İnsanlıq həddini
Aşmaq üçün.
Ömür keçir,
Yaşayıb,

Yaşa doluruq.
Günahsız doğuluruq,
Günahkar oluruq.
Bu gözəl ömrün,
Bu özəl ömrün
Qədrini bilək.

***2013***

## KÖLGƏSİZ İNSAN

Kölgəsiz insan,
Budaqsız, yarpaqsız
Ağac kimidir.
Kölgəsiz insan,
Odsuz-ocaqsız,
Lazımsız sac kimidir.
Kölgəsiz insanlar
Dünyada çoxdur,
Kölgəsi yoxsa
Özü də yoxdur.

## QAPILAR AÇILMAZ

Bilmədiklərimiz,
Bildiklərimizdən,
Görmədiklərimiz
Gördüklərimizdən
Çoxdur.
Bilmədiklərimizə,
Görmədiklərimizə
Güvənmək olmaz.
Güvənmək olmaz,
Qapılar bağlıdır.
Sim-sim deməklə də
Bu qapılar açılmaz.

## ŞEİR ÇİÇƏKLƏYƏR

Hərdən-hərdən
Təb gələndə,
Şeir yazıram:
Sənə xoş
Gələ də bilər,
Gəlməyə də bilər.
Təb də
Bahar kimidir,
Gələndə
Şeir çiçəkləyər.

***2013***

## GÜLDƏ - GÜLLÜK, BÜLBÜLDƏ CAN QOYMADIQ

Elə ki, qələm aldıq ələ,
Söz qoşduq
Gülə-bülbülə:
Güldə - güllük,
Bülbüldə can qoymadıq.
Gül sözünü,
Bülbül sözünü
Gecə-gündüz
Çeynədik, yedik
Güldə - güllük,
Bülbüldə can qoymadıq.
Yenə ac qaldıq,
Yenə doymadıq.

***2013***

## "SƏNƏT QURBAN TƏLƏB EDİR"

Qopub dildən, dodaqdan
Bir səs gəldi
Lap uzaqdan:
"Sənət qurban tələb edir".
Qondarma sənətçilər,
Tutdular qulaqlarını,
Yumdular dodaqlarını.
Səhnədə sənətçi qalmadı,
Sənətə qurban gedəni
Olmadı.

***2013***

## SƏHLƏNKARLIQ

Göz kül altında
Qorunan
Közü görmür.
Dil də
Dil-dil ötür,
Misralarda gizlənən
Sətraltı
Sözü görmür.

***2013***

## SÜRTÜK, ÜTÜK QAFİYƏLƏR

Qafiyələr,
İşlənə, işlənə
Sürtük oldular,
Misralar - misra-misra
Sütük oldular,
Dürtülüb
Yorğun gözlərə
Örtük oldular,
Misra-misra artıb,
Kitab-kitab
Çox oldular,
Sonra kitab-kitab
Yox oldular.

***2013***

## KÖÇ

Hər kəsin,
Zamansızlığa doğru
Köç anı var,
Bu an, anında gələr,
Saxlamaq olmaz.
Bu anı borc verib,
Borc almaq olmaz.
Hər ömrün köçü,
Zamansızlığa gedən
Yoldadır.
Köçün yolu
İnsanları aldadır.
Bu köçü
Yolundan saxlamaq
olmaz,
Bu köçün yolunu
Bağlamaq olmaz.
Bu köç,
Sonsuzluğa gedən yoldadır,
İrəli gedər, geriyə dönməz.
Bu köçə qoşulanlar,
Sevilər də, - sevinməz.

***2013***

$

## AYAQLARIMIN NAĞILI

Uşaq vaxtı,
Ayaqqabılı ayaqlardan
Utandı ayaqlarım,
Utandığından
Qışda palçıqda,
Yayda tozda
Gözlərdən gizləndi
Ayaqlarım.
Bir gün nənəm bazardan
Bir cüt qaloş aldı:
Qaloşu geyinən ayaqlarım
Sevincdən havalandı,
Havalandı - qanadlandı,
Uçdu ayaqlarım.
Uçdu həyət-bacalarda,
Uçdu küçələrdə, yollarda,
Uçdu zəmilərdə, tarlalarda,
Ağrımaq, yorulmaq bilmədi,
Uçmaqdan doymaq bilmədi.
Ayaqlarıma nə elədi,
Qara, parlaq qaloş elədi.
Həmin andan, gündən sonra
Ayaqlarım,
Ayaqlardan utanmadı:
Yayda tozla,
Qışda palçıqla
Maskalanmadı.

***2013***

## DEMOKRATİK TƏXRİBAT

Yüksək səviyyədə,
Atlara xidmət
Göstərdilər:
Tərsinə nallayıb,
Cıdıra göndərdilər.

***2013***

## SƏS GƏLİR

Bir səs gəlir
Çox uzaqdan,
Səs gəlir haqdan:
“Allahu-əkbər”
“La ilahə illəllah”
Haqdan gələn
Bu səs hamını
Haqqa səsləyir.

***2013***

## ÖMRÜMÜZ BOYDADIR

Yolumuz, sözümüz
Ömrümüz boydadır,
Yarısı vayda,
Yarısı toydadır.
Kədərimiz, sevincimiz,



9. - 3662

Gözümüz boydadır,
Xeyirdə, şərdə
Gözümüzdən boylanır.

***2013***

## ŞEİR YAZANDA

Yüz illər boyu,
Şeir yazanda
Gül deyəndə
Bülbül dedik.
Şam deyəndə,
Pərvanə dedik,
Doymadıq.
Gülü - bülbülsüz
Şamı - pərvanəsiz
Qoymadıq.

***2013***

## BÖYÜK ADAMLARIN SƏHVİ

Böyük adamların səhvi,
Çox böyük olur.
Böyük adamların
Böyük səhvləri
Övladlarına
Ağır yük olur.

***2013***

## BÖYÜK YÜK

Böyük adamların,
Dərdi də böyük olur,
Böyük adamların
Böyük dərdi,
Hamıya böyük
Yük olur.

***2013***

## BİLMƏYƏCƏKLƏR

***Elçin İskəndərzadəyə***

Böyük dərdləri
Böyüklər çəkir
Ətrafı sükut boğur,
Sükuta bürünmüş qaranlıq
Hərdən
Cinayətkar da doğur,
Həyat dayanmır ancaq.
Hər qaranlığın sonu
Zamanı gələndə
İşıqlanacaq:
Yenə çəkən çəkəcək,
Çəkilən çəkiləcəkdir.
Qoşquya qoşulmuş
Qayışın nə çəkdiyini

Nə çəkən, nə də çəkilən
Bilməyəcəkdir.

***2013***

## ÖLMƏK İSTƏMİRƏM

Ölümdən qorxmuram,
Ölmək də istəmirəm.
Ölümdən qorxuram ki,
Bütün dünyada
Ədalət bərqərar olar:
Sağalar-sağalmaz dərdlər,
Sağalar-sağalmaz yaralar,
Son qoyular ədalətsizliyə,
Son qoyular hərisliyə
Xəbərim olmaz
Arzum ürəyimdə qalar.

## SƏNSİZ GÜNÜM, GÜN OLMAZ

Sənsiz günüm, gün deyil,
Sənsiz günüm ağ olmaz.
Sənsiz günüm olmasın deyə,
Yerdən, göydən qoparam,
Saçlarına hoparam,
Hara getsən,
Arxanca sürünərəm.
Sürünərəm - incimərəm,

Sevinərəm, saçlarına
bürünərəm,
Saçlarında görünərəm.
Görünərəm, sevinərəm,
Saçlarına qarışaram, -
İstisinə isinərəm,
Tumarında yataram.
Sənsiz günüm - gün deyil,
Sənli günlər yaparam.

## MƏNİM ŞEİRLƏRİM

Mənim şeirlərim,
Mənim barmaq izlərim;
Qarışığa salsan da,
Seçiləcəkdir.
Mənim şeirlərim,
Fikir körpüsü
Fikirdən - fikirə
Keçiləcəkdir.

***2012***

$

## QIZ DANIŞIR, DODAQLARI GÜL AÇIR

Qız danışır, dodaqları dil açır,
Qız danışır, dodaqları gül açır.
Qız danışır, dodaqları işıq saçır.
Qız danışır, dodaqları oxuyur,
Dodoqlar sözə-söz toxuyur.
Söz qəzələ dönür,
Dodaqlar qafiyələnir.
Qız danışır, dodaqlar
Qönçələnir.
Qız danışır,
Dodaqlardan nur ələnir.
Dodaqlardan nur ələnir,
Qız danışır, sözlər qəzələ dönür,
Dodaqlar qafiyələnir.

## GÖY ƏKSİ VER

Göy əksi ver, sevincimi toplayım,
Sandıqçada, dar günümə saxlayım.
Dünyanın işini nə bilmək olar,
Bu gün var olan, sabah yox olar.
Zaman dəyişər, dövran dəyişər,
Dərdlərimin üstünə, sevinc tozu
səpərəm,
Sevincim çiçəkləyər, gül açar,
Dərdlərim baş götürüb
Dünyadan qaçar.

Yetimlərə can-can deyənlər tapılar,
Yetimlərə çörək verənlər tapılar.

## GÜC VAHİDİ

Qadının gücü -
Zərifliyi boydadır.

## PAPAQ

Papağı qoyduq başa,
Qeyrətlər qarışdı işə.
Qarabağı düşməndən almağa,
Papaqlar girdi döyüşə.
Başdan ucada duran,
Papaq yeridir həmişə.

***2012***

## RUH DA QUŞDUR

Ruh, qəfəsdə doğulmuş quşdu,
Doğulanda, qəfəsdə doğulmuşdu.
Elə ki, qanad açdı,
Elə ki, qəfəsdən uçdu,
Ulu Tanrıya qovuşdu.

***2012***

## İSTƏYİRƏM

İstəyirəm, bir yana gedəm,
İstirahət edəm:
Fikirlər rahatlıq
Vermir mənə
Mən də eləcə
Qələm-dəftərə.

## NƏ SEVİNC, NƏ KƏDƏR

Oxunur,
Oxunur şeirlər.
Əsir sanki,
Həzin küləklər, -
Nə sevinc bəxş edir,
Nə verir kədər,
Oxunanlar gedir hədər.

***2013***

## SÖZÜMÜ DEYƏR

Deyirsən susum,
Susaram, -
Lazımsa əgər.
Ancaq,
Şeirlərim dil açıb,
Sözümü deyər.

***2013***

## BAĞLAYA BİLMİR

İnsanın
Bir giriş,
Bir çıxış yolu var,
İnsan, dərdini - dərib
Saxlaya bilmir.
Yollara - yol o qədərdi ki,
İnsan bu yolları
Bağlaya bilmir.

***2013***

## BU UŞAQ

Sevinir hər şeyə,
Sevir hər şeyi
Bu uşaq.
Hər şeyi oyuncaq bilir,
Hər şey oyuncaq təki,
Görünür ona.
Günəşi uçan qızıl
Şar bilir,
Axtarır sapını
Oynatmaq üçün.
Günəşin işığı
Düşür üzünə,
Gözləri qamaşsa da,
Yanaqları, dodaqları
Gözəlləşir,

Uşaq sevinir
Həvəsə gəlir,
Dilində sözlər çiçəkləyir.
Uşağa elə gəlir
Dünya - dünya boyda
Oyuncaqdı,
Uşaq dünya ilə
Əylənir.

***2013***

## ALDADA BİLƏR

Sənə də, mənə də
Zahiri görünüş,
Saxta bir gülüş,
Gülüşə bükülmüş
"Sevirəm" sözü
Bal dada bilər,
Səni də, məni də
Aldada bilər.

***2010***

$

## ALIN YAZISI

Ayrı-ayrı adamlar idik:
Birləşdirdik sevgimizi,
Sevgiyə qovuşmuş şəklimizi,
Şəklimiz bir oldu -
Bir olduq.
Şad olduq.
Şəklimiz qaynadı-qarışdı,
Özümüz sevgidən doyduq,
Özümüz sevgiyə yad olduq.

## TÜRK ADINA YARAŞAN OLDU

Türk - türkdür,
Türkün
Ölməz Türk adı var.
Türklər cəsarətlə
Döyüşən olur.
Türkün dostluğu da,
Düşmənçiliyi də,
Türk adına
Yaraşan olur.

***2010***

$

## OĞLUM MAHİRƏ

Kim-kimi satır,
Nə işin var?!
Kim-kimə atır,
Nə işin var?!
Dərdi, qəmi unut,
Torpağın
Səsini eşit,
Nəbzini tut.
Torpaq həyatdı,
Torpaq evdi,
Torpaq sehirli
Sirli çıraqda
Yaşayan divdi.
Əlini, üzünü
Çək torpağa,
Gücünü, qüdrətini
Ək torpağa:
Görəcəksən ki,
Tanrı verməyənləri
Sənə torpaq verdi.

***2012***

$

## İNSANLAR,

## SİLAHLARI SƏRGİLƏMƏYİN

***2011-ci ilin dekabr ayında Küveytdə dövlətlərarası silah sərgisi keçirilirdi***

İnsanlar!
Silahları sərgiləməyin,
Gedin,
Hər yerdə
Silahları məhv edin.
Harda silah var,
Orda qan var, qada var.
Silahlar can verən deyil,
Silahlar can alandı.
Silahlar olan yerdə,
Əzrayıl da yalandı.
Dünya silahlarla yandırıldı,
Dünya silahlarla talandı.
İnsanlar, gedin,
Bütün silahları
Məhv edin.

$

## UŞAQLARDAN XƏTƏR GƏLMƏZ

Uşaqları dərk etməyə,
Dönüb uşaq olmalıyıq.
Uşaq-uşaqdı, -
Hələ fikirləri, yolları
Qarışıqdı,
Dolaşıqdı.
Uşaqlar
Evə, həyətə yaraşıqdı.
Uşaqlara qoşulaq, -
Biz də elə uşaq olaq.
Uşaqlarla oynayaq,
Uşaqlarla yarışaq.
Uşaqlarla oturaq, duraq,
Uşaqlarla yaxın olaq.
Yaxından görək gözlərini,
Dinləyək uşaq kəlamlarını.
Dinləyək uşaq sözlərini,
Uşaqlarla qaynayaq, qarışaq,
Uşaqlar qeybət bilməz,
Uşaq olaq saflaşaq.
Uşaqlardan xətər gəlməz,
Uşaqların ağlına gələnlər
Böyüklərin ağlına gəlməz,

$

## LƏZZƏTİ YOXDUR

Vallah, bu dünyanın
Sərt üzünün,
Tərs üzünün,
Astarının, üzünün
Sevincindən
Əzabı, kədəri çoxdur.
Əzabsız, kədərsiz
Dünyanın da
Ləzzəti yoxdur.
Əzab, kədər
Əsəbləri oyadır,
İnsanları yatmağa
Qoymur.
Eyş-işrət bataqlığında
Batmağa qoymur.

***2013***

## BİLİRƏM

Bilirəm ordumuz
Qarabağa gedəcək,
Düşməni məğlub edəcək.
Təpiklərinin səsi,
Qarabağdan gələcək.
Xalqım sevinəcək,
Vətən bütöv olacaq.
Vətən heykəl-heykəl

Qəhrəmanlar doğacaq,
Doğulan qəhrəmanlar
Vətənə - Vətən mükafatı
Olacaq.

***2010***

## ÜFÜQLƏR - SƏHƏRƏ QƏDƏR...

Üfüqlər
Səhərə qədər,
Dan yerini sökər,
Özünə qırmızı
Don tikər.
Səhər
Günəşi doğmağa,
Zülməti boğmağa
Məqam gözləyər.
Üfüqlər
Dan yerini sökər,
Özünə qırmızı don
tikər,
Əyninə geyər,
Ulduzları yeyər
Gecənin qoynundan,
Ayın altından
Tər tökə-tökə
Sağ çıxar,
Üzüağ çıxar.

***2012***

## DOĞMADIR DİLİMİZƏ

Bir söz şeirə gəlirsə,
Yer tapıb yerləşirsə,
Demək doğmadır bizə,
Doğmadır dilimizə.

***2013***

## SONDA ÖZÜ ŞAİR OLDU

Qələm də nadinc uşaq kimidir:
Kağız qaralamaqdan doymur.
Sözü - söz üstdə toplayan qələm,
Kağızı - kağız üstdə qalmağa
qoymur.
Qələm də nadinc uşaq kimidir;
Çoxlu kağız qaraladı
Kağızlara, qara rəng doldu.
Çoxlu kağız qaralayan qələm;
Sonda özü şair oldu.

***2013***

## ZAMANLA QARIŞIĞI VAR

Hər aşiqin, bir dövranı,
Hər dövranın öz aşiqi var.
Hər çiçəyin, öz ətri;
Öz yaraşığı var.
Hər şairin öz dəst-xəttində,
Öz zamanının qarışığı var.

***2013***



10. - 3662

## PAYIZ

Gəldi,
Meşələri lüt-üryan
Qoydu payız.
Meşələr gizlənməyə,
Bürünməyə
Yarpaq tapmadı.
Ağaclar meşədən
Qaçmaq istədi,
Xəzəllər sarıldı
Ayaqlarına.

***2011***

## BAYAT SÖZLƏRİ GÖTÜRMÜRƏM

Hamı bildiyini
Mən də bilirəm.
Hamı dediyini
Mən demirəm.
Bayat səsləri
Eşitmirəm,
Bayat sözlər
Yoluma düzülə...
Götürmürəm.

***2011***

$

## KANON ÇALAN QIZA

Səni gördü,
Sevincdən kanonun
Ürəyi getdi,
Yıxıldı qoşa
Dizlərin üstə.
Əllərin, barmaqların
Kanonu oyatmaq üçün,
Çimdiklədi kanonun
Yanaqlarını.
Sığalladı dodaqlarını.

***2012***

## SINDIRMA ÜRƏYİMİ

Sındırma ürəyimi,
Sındırma.
Ürək sındırmaq
Çətin deyildi.
Çətini
Sınmış ürəyin
Bərpasındadır,
Məlhəm, sarğı istəyən
Yarasındadır.

***2012***

$

## SINDIRACAQLAR

Hələ də bu dünyada,
Keçini - qoyun,
Qoyunu - keçi ayağından
Asanlar var.
Zamanı gələndə,
Elə həmin insanlar,
Talançı, yalançı, cinayətkar
Məmurları da
Cinayətkarlar ayağından
Asacaqlar:
Möhtəşəm yapılmış,
Mərmər heykəllərini də
Sındıracaqlar.

## GÜNƏŞ DOĞUR

Günəş doğur,
Ögeylik, doğmalıq
bilmədən
Yer kürəsinə,
işıq saçır.
Yer kürəsi,
Şəfəqlərin qoynunda
Fəzada
Qol-qanad açır
uçur,
Taleyinə düşən,

İşıq payını alır -
Yaşayır və
Hər şeyi yaşadır.

***2011***

## NƏYİ NƏ DİQTƏ EDİR?

Şeri necə yazmağı,
Şair - şerə yox,
Şeir - şairə diqtə edir:
Belə bir kəlam da var,
Su axar,
Çuxurun tapar.

## ARXALI KÖPƏK

Arxalı köpək,
Sahibi arxası,
Dayağı köpək!
Sahibin səsilə,
Bir-iki ağız
Hürr görək.
Onsuz da
Hürən sən olsan da,
Hər yanda
Sahibin səsi,
Eşidiləcək.

***2012***

## KÖLGƏDƏ BİTƏN ÇİÇƏYƏM

Kölgədə bitən bir çiçəyəm,
Bilmirəm ağlayam, yoxsa ki, güləm.
İstərəm günəşi əynimə geyəm,
Sözümü birbaşa, göylərə deyəm.

***2012***

## ÖVLADLAR

Övladlar - valideynlərin
Gen yaddaşıdır.

## DEYİRƏM

Deyirəm, İlahi
Nə dərinəm, nə dayaz.
Bu insan ömrümə,
Dəniz yaz,
Dəniz ömrü pis olmaz.

## MÜHİT

Mühit insanı tərbiyə edir,
İnsan bu yolu tutub gedir.

$

## ŞAİRLƏRİN ÇOXLUĞUNDAN QORXMAYIN

Qorxmayın şairlərin
Çox olmağından,
Şairlər
Gül-çiçək kimidir.
Hərəsinin
Öz rəngi, qoxusu var.
Şairi çox olan
ölkələrin,
Sevinci, ətri də
Çox olar.

## BİLMİRƏM

Bilmirəm,
Kim nə əkir,
Kim nə biçir,
Kim yolu əyri,
Kim yolu düz keçir.
Necə keçir - keçsin
Hansı yolu seçir - seçsin
Baş - başda durur,
Ağrını, acını
Ayaqlar çəkir.

***2012***

## KİMƏ QİSMƏT OLACAQ BİLMİRƏM

Qəlbimdə bir sevgi
cücərir,
Kimə boylanacaq,
Kimə qismət olacaq
bilmirəm.
Hər əzaba sinə gərir,
Gizlin-gizlin cücərir,
Boy atır yekəlir - bilirəm,
Kimə qismət olacaq - bilmirəm.

## ARZULAR ÇİN OLSUN

Hansı qadın istəməz ki,
Gözəl olsun, göyçək olsun.
Ətrafında körpələri,
Təknəsində çörək olsun.

## REKLAM KİMYAGƏRLİYİ

Pulunu ver,
Reklamlara,
Düş qabağa,
Qalma dala,
Turş ayranın
Dönsün bala.

***2013***

## ZORLA QOPARAQ

Güclü ordu,
Varlı dövlət
Yaradaq,
Düşmənlə də
Danışıqlar aparaq.
Söhbətimiz
Sülh yoluyla
Bitməsə,
Yağılardan Qarabağı
Güclə, zorla qoparaq.

## UZUN ÖMÜR NAĞILI

Uzun ömür sürmüşəm,
Dünyanın
Hər üzünü görmüşəm.
Sevinc olub, şənlənmişəm,
Kədər olub, qəmlənmişəm.
Yas üstündə köklənmişəm.
Gün olub, sevinci toy,
Qəmi yas paltarı təki
Əynimə geyinmişəm.
Həqiqətin ardınca
İlan təki sürünmüşəm.
Doğulanla - doğulmuşam,
Ölənlə - ölmüşəm.
Gözlərim baxa-baxa,

Gözlərimdən
Kədər seli axa-axa
Dayanmışam
Qəbiristanlıqla
Kənd arasında.
Dostlar, doğmalar
Dünyasını dəyişir,
Onları hüznlə
Yola salıram,
Özüm yenə də kəndlə
Qəbiristanlıq arasında
Qalıram.
Uzun ömür sürməyi
Bilməyin asan,
Gərək,
Kəndlə - qəbiristanlıq arasında
Başdaşı olmağı bacarasan,
Dayanmağı, yaşamağı, dözməyi
Bacarasan.

***2012***

## QƏLBDƏN - QƏLP ÇIXAN SÖZ

Əgər söz, şair qəlbindən
Çıxırsa,
Sözün - şeriyyətinə
Söz ola bilməz.
Qəlbdən - qəlp çıxan sözdə,
Ürəyi yandıran köz ola bilməz.

İndi biz gərək,
Kül altda közü olan,
Abırlı astarı-üzü olan,
İsmətli, qeyrətli şeirlərə
Böyük meydan verək.

***2012***

## “AZACIQ AŞIM, AĞRIMAZ BAŞIM”

Görən kim, harda
Hansı zamanda,
Hansı məkanda,
Gözləri belə tox olub,
Dərdi, qəmi yox olub.
Hamını gözü tox olmağa,
Tamahı cilovlamağa,
Tamaha qarşı insanları
Cihada çağırıb, hamını
Düz yola səsləyib?
Yoxsa o,
“Azacıq aşım, ağrımaz başım”
Deyərək,
Özünü, öz başını, qorumağa,
Tərki-dünya olmağa çağırır?

$

## QƏLƏM

Mən onu unutsam da,
O, məni unutmur.
Dar gündə, hər yerdə
Köməyə gəlir,
Əlimdən tutur.

***2012***

## İNSANLAR - AKSİOM

İnsanlar
18 - yaşından
70 - yaşına kimi
Həyatın hücumçularıdır.
70 - yaşından sonra,
Müdafiə oyunçularıdır.

## TƏBİƏT DƏLİ OLUB

Təbiətin - təbiətinə
əl qatdıq,
Əsəblərini oyatdıq,
Sonra təbiətə
Şər atdıq,
Təbiət dəli olub.
Yazı-yayı bilinmir,
Təbiət gülməli olub.
Düz yolunu itirib,
Təbiət dəli olub.

***2011, 2012***

## QİSMƏT ALLAHDANDIR

Ömrümə şərik çıxa bilmədi,
Boğazıma şərik çıxanlar.
Dolaşdı - yollarda qaldı,
Tələ quranlar, ev yıxanlar.

***2013***

## DƏNİZ OVU

Gedirəm sahilə,
Dənizə qarmaq
Atacağam.
Artıq tamah dənizi,
Qurdla aldadıb,
Qarmaqla tutacağam.

***2013***

## HAVAM ÇATMIR

Gedirəm dağlara
Hava almağa,
Şəhərdə havam
Çatışmır ancaq.
Bilirəm,
Şəhərdən getməsəm
Şəhər məni udacaq.

***2013***

## PUL

Pul - qılıncdan kəsərlidir,
Döyüşən ordunun sağ əlidir,
Qılıncdan, qalxandan irəlidir.
Topdan, tüfəngdən sərfəlidir.

## UCALIĞIN FƏSADLARI

Başım buludlara dəyməsin deyə,
Başımı aşağı əyib gedirəm.
Buludlar başımı yeməsin deyə,
Tövbə qapılarına dəyib gedirəm.

## MƏLƏKLƏR YAZDIRIR

Mən şeir yazmıram,
Yazdırır mələklər mənə.
Yazdırır yaz, yay havası,
Yazdırır güllər, çiçəklər, mənə.

$

## DİL HAQQINDA NAĞIL

Dili olanların dilçəyi də olur.
Heç özüm də bilmədən,
Bilmirəm, necə, nədən
Dilim bir səhv etdi,
Səhv baş götürüb
Hər yana getdi.
Bütün ömrümü
Sərf etdim,
O səhvi düzəldə
bilmədim.

***2010***

## ŞEİR YAZIRAM Kİ, SƏHV EDİM

Şeir yazıram ki,
səhv edim.
Səhvim qalsın,
Bu dünyada.
Bu dünya
Səhvlər, günahlar
Yuvasıdır,
O dünyaya səhvsiz,
Günahsız gedim.

***2012***

$

## ÜRƏKDƏN KEÇƏR

Hər zaman,
Yaxşı, yaman
Görülən işlərin,
Ən uzun yolu
Ürəkdən, qandan
keçər.
Atalar demiş:
Örkən nə qədər
Uzun olsa da,
Hərlənər, fırlanar
Doğanaqdan keçər.

***2011***

## GÖZƏLİM

Gözəlim,
Sən elə sənsən,
Gözəllikdə təksən,
Yeganəsən.
"Demə şair sözü
yalan olur"
Mən yalan demirəm,
Səni - sən olduğun üçün
sevirəm səni.
Sən yazılanlar, deyilənlər
kimi yox,
Yazılmayanlar,

Deyilməyənlər kimisən.
Həmişə gözəlsən,
Həmişə baharsan.
Zaman yanından
Yan keçib.
Gözəlliyi
Gözəl don kimi,
Yaradan boyuna biçib.

## CƏHD

Günəş göydən od töksə də,
Xəyalım göylərin ağuşundadır.
Təbiətin əlləri günəş ətəyində,
Günəşin əlləri yaz başındadır.

***2012***

## EYBİN GÖRÜNMƏSİN

Dayan!
Ağlama, sızlama,
Çıxmasın səsin!
Eybinə yamaq vur,
Ayıbın görünməsin.

***2012***

$



11. - 3662

## ÖZƏL TƏBİƏT OLUR

Hər kəsin qəlbində,
Özəl həyat olur:
Özəl həqiqət olur,
Özəl məhəbbət olur,
Özəlləşmiş həyat,
Özəlləşmiş həqiqət,
Özəlləşmiş məhəbbət
Kiminə sevinc gətirir,
Kiminə dərd olur.
Özəl həyatı,
Özəl həqiqəti,
Özəl məhəbbəti,
Tanrı qoruyur
Bölüşmək olmaz.

***2012***

## SÖZLƏR ZORLANIR

Zorla şeir yazılanda,
Sözlər zorlanır,
Şeirlər bic doğulur,
Şeirlər gözükölgəli
olur.

***2013***

$

## YARPAQLAR

Yarpaqlar
Dünən yaşıl idi,
Yaşıllığı göz oxşayırdı.
Yaşıllıqlar,
Şerə dönüb söz oxşayırdı.
Bu gün
Küləklərin kobudluğundan,
Payız nəfəsinin
Soyuqluğundan saraldı, soldu.
Yarpaqlara nə oldu,
Zamandan oldu.
Yaşıllığı yox oldu.

***2013***

## NALA-MIXA VURMA

Diqqətini cəm elə,
Nala-mıxa vurma belə.
Mıx düşər, nal tökülər,
Nalın səsi sorağı,
Səni zirvədən yıxar.
Sözü tükənməyənlər,
Mıxa vurar, nala vurmaz.
Məclisdən-məclisə gedər,
Yalan-palan uydurmaz.

***2013***

## İNDİ

İndi
Xahişə, minnətə
Baxanlar yoxdur.
Əmiyə, dayıya, ciblərə
Baxanlar çoxdur.

## ÇOX YAŞAMAQ İSTƏYİRİKSƏ

İstəyiriksə
Çox yaşayaq,
Az yeyək,
Az oturaq,
Az danışaq,
Küsülü qalmayaq,
Savaşsaq da,
Tez barışaq.

## ŞEİR YAZANDA

Şeir yazanda
Ağlıma gələnləri,
Ötərgi fikirləri
Yazmıram,
Buyrulanları,
Ürəkdə, beyində
Durulanları
Yazıram.

## UŞAQLAR VƏ BÖYÜKLƏR ÜÇÜN TAPMACA

Kim deyər, niyə
Qara rəngli,
Meyvə, tərəvəz yoxdur,
Qırmızı, sarı, ağ, yaşıl
Rənglisi
Daha çoxdur.

## ÖZÜNƏ XOŞDU

Amerika, Avropa
Mədəniyyət adı ilə,
Öz məddahını
Sırıyır bizə,
Zorla soxur gözümüzə.
Göbəklər, baldırlar açıq,
Sinələr kürəklər açıq
Qadın bədənində,
Qadına məxsus,
Sirli, gizli sahə qalmır.
Axı, qadında, qadına məxsus
Abır, həya deyilən
Meyar da var,
Öz həyatı boyu
Qorunmalıdır qadınlar.

## YAŞAMAĞI BACARIR

İnsan yaşamaq üçün,
Oddan, alovdan keçir.
Özünə, gücünə məxsus,
Yol seçir.
Ömrü güdaza verməmək
üçün,
İnsan yolun düzünü
Axtarır, tapır
Düz yol onu
Düzlüyə aparır.

## AİLƏ

Qadınla kişi,
Yetmiş yaşa qədər
Ər-arvad olur.
Həyatları şən,
Evləri abad olur.
Yetmiş yaşından yuxarı,
Dost olurlar:
Dostluqları da,
Ər-arvad sayaq olur.
İşdə,
Evdə-eşikdə
Biri-birinə, həyan,
Bir-birinə dayaq olur.

## SAXLAMAQ OLAR

Harda ki,
Vicdan da, qeyrət də var,
Orda-insanı da,
İnsanlığı da
Qorumaq, saxlamaq olar.

## ALOV TƏKİ TƏHLÜKƏLİSƏN

Sən alov təki təhlükəlisən, gözəl,
Qorxuram baxam gözlərinə.
Təhlükəli olduğunu özün bilirsən,
Gözlərini açıb baxmırsan mənə.

Üzdən gözəl olmasan da,
Daxilən çox gözəlsən.
Dərdini, qəmini unut,
Taleyinlə çıxma savaşa,
Daxilini üzünə tut,
Yaşa, gözəlim, yaşa.

Ömür elə belə olur,
Ömrü qayğılar,
Qaz təki yolur.
Nəsə bir gün çatır,
Nəsə bir gün çatmır.
Qayğılarla yaşayan insan,
Dincəlmir, yatmır.

Həyat, ömür boyu belə olur;
Bu gün gözəl olan
Sabah saralır-solur,
Elə ki,
İnsan dünyaya gəlir;
Həyan - həyatda
Fəsillər təki
Növbələşir.

## QOŞA YAŞAYAN OKEANLAR

Bu dünyada
Qoşa yaşayan,
Aşan, lakin daşmayan
Su okeanı da var,
Söz okeanı da var.
Su okeanı su ilə,
Söz okeanı sözlə dolur.
Su okeanı su ilə dolub,
Dərinləşir, genişlənir
Yaşayır.
Söz okeanı sözlə dolanda
Daşmır.
Söz dil açır,
Dilə gəlir dildə yaşayır,
Söz eldə yaşayır.

***2013***

## KOMPYUTER

Kompyuterdə də,
Tanrı möcüzəsi vardır.
Bu möcüzəni Tanrı yox,
Tanrı icad etdiyi
İnsanlar yaradır.
Kompyuter
Kainat qədər sonsuzdur,
Okean qədər dərindir.
Möcüzələri,
Tanrı icad edən
Bəndələrindir.

***2013***

## İŞIQÇI OLMUŞAM

Toxunmayın mənə,
Dəyməyin mənə:
Özüm-özümdə,
Öz işimdə, öz sözümdə
Həll olmalıyam.
Ömrümün ağ qalmış
Səhifələrini,
Zəka işıqlarıyla
Doldurmalıyam.
Yollarıma yol boyu
Gözlərimdən işıq salıb,
Yol işığı, işıq yolu
Olmalıyam.

## "ÇEVİR TATI, VUR TATI"

Söz şeir olana qədər,
Sözdə dirilik olana qədər,
"Çevirirsən tatı, vurursan tatı".
Üzə çıxır sözün sirr qatı,
Üzə çıxır şerin qızıl qatı,
Dürr qatı.
Üzə çıxır şerin
Şeir qatı, düz qatı,
Oğuz qatı.

***2013***

## ÖZÜMÜNDÜR

Yandırdığım çıraq,
Qaladığım ocaq, köz özümündür.
Şeir yazan əl,
Şeir deyən
Dil, dodaq,
Şeirdə oxunan söz özümündür.
Çək-çevir etməyin çox
Şeirlərimi.
Şeirlərimdə yad, qarışıq yox.
Yorğanımı üstümə atmışam,
Ayaqlarımı
Yorğanıma görə uzatmışam.
Astar özümündür,
Üz özümündür.
Şeirlər yazdığım
Söz özümündür.

***2013***

## YETMİŞ YAŞIN FƏSADLARI

Yaşım üzümə durur,
Ürəyim ürəksiz vurur.
Yoxuşda nəfəsim kəsilir,
Enişdə dizlərim əsir.
Gözlərim işıq axtarır,
Əllərim yaraşıq axtarır.
Başımda fikirlər dolaşır,
Danışanda dilim çaşır.
Təzyiq başımdan heyfini çıxır,
Dizlərim titrəyir, məni yıxır.
Həyat şirindir bilirəm,
Həkimdən-həkimə varıram,
Tutmağa Tanrı ətəyi,
Saman çöpü axtarıram.

***2013***

## HÖRÜMÇƏK TƏKİYİK

Tanrının hüzurunda,
Hörümçək təkiyik,
Asılmışıq Tanrının
Ayaqlarından.
Savablarımız az,
Günahlarımız çox olanda,
Qopub düşərik cəhənnəmə,
Tanrının ayaqlarından.

## DEYİRLƏR XƏZƏRİN NEFTİ TÜKƏNƏCƏK

Neftçi qardaş,
Deyirlər ki,
Gün gələcək,
Xəzərdə neft tükənəcək - inanma.
Neçə ki, Xəzər dalğalanacaq,
Dalğaları şahə qalxacaq,
Xəzər xəzərliyində qalacaq,
Xəzərin altında neft olacaq.
Xəzər neft çalxalayacaq,
Xəzərin sərvəti
Ölçüyə gəlməz,
Xəzərin suyu tükənər,
Nefti tükənməz.

## DEYİRLƏR

El içində
Pis adamlara
Alçaq, əclaf,
Nadan deyirlər,
İtoynadan deyirlər.
Sən demə,
Alçaqlar, əclaflar,
Nadanlar, harda var,
Harda olsalar,
Şeytan olacaqlar,
Şeytan qulağı
Sulayacaqlar.

## İŞIQ HARDAN DÜŞÜR BİLMİRSƏN

Sən gözəl günlər görürsən,
Gözəl ömür sürürsən,
Sevinirsən, gülürsən.
Bu sevincin işığı,
Hardan düşür bilmirsən.
Mənim sevincimin işığı
Sənin kədərinə tuşlanıb.
Sənin kədərin,
Mənim sevincimi
Ürəyimdən qoparıb,
Əlimdən alıb.

## AĞIR YÜKƏ ÇİYİN VERDİM

Şeir adlı ağır yükün,
Ağırlığına çiyin verdim.
Çiyinlərim ağrıyanda,
Yükün çox ağır
Olduğunu bildim.
Yükü çiyinlərimdən,
Atmaq istədim.
Yarı yaşda,
Yarı yoldan
Sakit bir həyata,
Qayıtmaq istədim.
Sonra qeyrətə gəldim,
Cəsarətə gəldim

Bu namərd işə görə,
Qorxuya, təşvişə görə
Özüm-özümü qınadım,
Özüm-özümə güldüm.

***2013***

## TANRININ İŞİNİ BİLMƏK OLMAZ

Bəlkə,
Əlli ildən,
Bəlkə də,
Yüz ildən sonra,
Kimsə səsimə
Səs verəcəkdir.
Düşəcək səsimin izinə,
Məni yenidən
Kəşf edəcəkdir.

***2013***

## ÖLÜLƏRƏ DEYİN, İSGƏNDƏRİN BUYNUZU VAR

Sirrinizi,
Sirr sözünüzü
Faş olmasın deyə,
Sözünüzü ölülərə
Deyin.

Sirrinizi ölülərə
Verin.
Ölülər susmağı
Bacarır.

***2013***

## HƏYAT BİR TƏCRÜBƏDİR

Həyat dediyin
Bir təcrübədir.
Təcrübə məni elədi.
Gözəllər bəhanədir,
Mənə nə elədi,
Həyat elədi.

***2013***

## AŞİQ YARANAR

"Hər aşiqin,
Bir dövranı var",
Hər dövranın,
Öz aşiqi var.
Dövranı gələndə,
Aşiq də yaranar.

***2013***

$

## QUŞLAR DA AZAN VERİR

Baharda,
Quşlar da
Hər səhər
Tezdən durur,
Zəngulə vurur,
Quş dilində
Azan verir,
Quşlar
Tanrıya dua edir,
Sonra uçub
Yem dalınca
gedir.

## HEYİF SƏNDƏN

Heyif səndən cavanlığım,
Gözlərimə
Baxa-baxa getdin.
Ömrümü odlara
Yaxa-yaxa getdin.
İndi sənə
Əlim çatmır,
Ünüm yetmir.
İndi səni axtarmağa,
Mən gedirəm,
Ürək getmir.

***2013***

## YENİ, KÖHNƏ STİLLƏR

Yeni, köhnə stillərdə,
Yazılan yazılarda
Əsəbləri tumarlayan,
Əsəblərə toxunan yazılarda:
Yeni stildə,
Köhnə söz desən,
Demək
Köhnəliyə yuvarlandın.
Köhnə stildə
Yeni söz desən
Demək Tanrıdan
Yeni ilahi söz aldın,
Ədəbi mühitdə,
Əbədi qələbə çaldın.

***2013***

## RÜŞVƏT

Sağ əl alır,
Sol ələ verir.
Sol əl alır,
Sağ ələ verir.
Bunu görənlər deyir
Bunu bilənlər deyir:
Sağ əl də, sol əl də
Rüşvət yeyir.

***2013***



12. - 3662

## ŞAİR VƏ SÖZ

Şair əlində söz,
Mis məftil kimidir.
Hər formaya sala bilər,
Hər forma da ala bilər,
Belə hallarda söz
Şeir ola bilər.

***2013***

## DÜNYA DİNCLİK BİLMƏYƏCƏKDİR

Vaxt olur, sözlə yüklənirik,
Vaxt olur, sözlə kölgələnirik,
Vaxt olur, sözlə güllələnirik,
Vaxt olur, sözlə köklənirik.
Vaxt olur, dindən, imandan
qaçırıq,
Vaxt olur, dinə-imana gəlirik.
Vaxt olur, sözlə ucalırıq,
Vaxt olur, sözü-sözdən
Borc alırıq, bac alırıq.
Ömür keçir, gün keçir,
Söz içində qocalırıq.
Bu dünya dinclik bilən
deyil,
Bu dünya biclik bilən
deyil.
Necə ki, dünyanın

Şeytan adlı düşməni vardır,
Dünya ağlayacaqdır,
Gülməyəcəkdir,
Dünya dinclik bilməyəcəkdir.

***2012***

## İTİB-BATMAZ

Dostum!
Sən dediyini de,
Yazdığını yaz.
Dediyini yazsan,
Özün itib-batsan da,
Yazıların itib-batmaz.

## GƏLƏN BİLƏR, GEDƏN BİLMƏZ

Yalnız Tanrı bilər,
Heç kəs bilməz,
Bu dünya gəlməyə dəyər,
dəyməz.
Gələn bilir, nəyə gəlir,
Gedən getdiyini bilməz.
Gələn çığıra-çığıra gələr,
Hamının diqqətini cəlb edər.
"Mən varam, var olmuşam",
Gedən susar, danışmaz, dinməz,
Sükuta bürünər gedər,
Ruha dönər, gedər.

## ELƏ Kİ

Elə ki,
Ərlə-arvadın
Hüquqları bir oldu,
Kişi kişiliyini,
Ər ərliyini itirdi,
Kişilərin ər başına
Kül oldu.
Qadınlar çılğın,
Qadınlar kür oldu.

## NƏ OLAYDI

Nə olaydı.
Mən səni sevdiyim qədər
Sən də məni sevəydin.
Sevdiyini, dillə yox,
Qaşınla, gözünlə,
Him-cimlə deyə biləydin.
Bu kainatda,
Göylərin altda
Ən xoşbəxt kişi olardım,
Hopardım saçlarına,
Arxanca dolanardım,
Saçlarından sallanıb,
Qoynunda yurd salardım.

$

## DÜZ DEYİRLƏR

Düz deyirlər,
Dünya yalan
dünyadır,
Can verib cana,
Canı-candan alan
dünyadır.
Kiminə kef-damaq,
Kiminə palan
dünyadır.
Kiminə əzab-əziyyət
dünyadır,
Kiminə toy-bayram
Cənnət dünyadır.

## VAR

Demə,
Hər kəsin öz insanlıq
Səviyyəsi var,
Səviyyədən danışır,
Səviyyəsi olmayan,
Səviyyəsiz adamlar.

$

## GÖZƏL İNSANLAR YARANIR

Hər şeyin
Əvvəli var,
Sonu var.
Gözəl olur,
Sonsuz olur,
Sonu gözəl duyğular.
Gözəl duyğulardan,
Gözəl hisslər oyanır,
Gözəl hisslərdən
Gözəl-gözəl
İnsanlar yaranır.

## BAŞ HAQQINDA NAĞIL

Çiyinlərdən yuxarıda
Baş-başdır.
Elə ki,
Çiyinlərdən aşağı düşdü,
Baş adicə daşdır.

## TALAN OLUR

Daldada "həqiqət" kimi
Deyilən söz,
Üzə deyiləndə
Yalan olur.

Yalanlığı aşkar olanda,
Arzular, istəklər
Talan olur.

## QAFİYƏ HƏSRƏTLİ ŞEİRLƏR

Dostum, a şirin-şəkər,
Bilmirsən, məgər,
Qafiyəyə həsrət qalıb
İndi şeirlər.
Şerimiz
Qafiyəni unudub,
Qafiyəsiz misralardan
Bərk-bərk tutub.
Yazıq
O şeirlərin halına,
Həsrət qalıb
Bir qafiyə vüsalına.

***2011***

## DEDİLƏR

Dedilər,
Sirkə tünd olanda,
Öz qabını partladar.
Dedilər, bilmədilər ki,
İndi elə hikkəli, qəzəbli

Tünd sirkələr var,
Öz qabından əvvəl,
Özgə qabları da
partladar.

***2011***

## HƏQİQƏT HƏR KƏSİN ÖZ İÇİNDƏDİR

Uzaqda deyil,
Həqiqət hər kəsin
Öz içindədir.
Dilə gəlmir,
Gözə görünmür.
Danışmır, dinmir,
Özü öz işini bilmir.
Həqiqət
Ürəklərdə ölədir,
Kölə olub həmişə,
Kölə doğulub həmişə.
Uzaqda axtarmayın
Həqiqəti,
Həqiqət burnumuzun içindədir.
Burnumuzun ucunu görməyə
Qadir deyilik.

***2012***

$

## ÖZÜ-ÖZÜNÜ KÖPÜRDƏN ADAM

Özünü çox köpürtmə,
Köpünü tez alarlar,
Gözümçıxdıya salarlar.
Zirvələrdə yurd salma,
Çəkib yerə salarlar.
Dünya usta dünyadır,
İnsanlar ondan da
Ustadır.
Vallah, həyat bal dadır,
Şəkəri bizi aldadır.
Dünya başımızı qatır,
Həyat -
Həyat da bizi yubadır.
Dünya -
Dünya boyda bir evdir,
Dünya -
Dünya boyda bir yuvadır.

***2012***

$

## ULDUZLAR

Ulduzlar Tanrının
Göy çiçəkləridir.
Göy çiçəkləri ancaq
Gecələr çiçəkləyir.
Göy çiçəkləri göyləri,
Şamlar evləri nurlandırır.
Gecələr, ulduz-ulduz
Göy çiçəkləyir.
İnsanlar
Evlərin nur çiçəklərini,
Tanrının göy çiçəklərinə
dəyişməz,
Tanrı da heç nə deməz.

## ŞAİR PİR OLUR

Söz-söz olanda,
İnsan şair olur.
Söz köz olanda,
Şairlər pir olur.

***2012***

$

## QISIR QALA BİLƏRSƏN

Sən təzə ev ala bilərsən,
Yeni şəhər sala bilərsən,
Lap məşhur ola bilərsən,
Min ölçüb, bir biçməsən,
Bir könül fəth etməsən,
Qısır qala bilərsən.

## KÖPƏKLƏR

Köpəklər köpəklik etməyəndə,
Küçüklər tüğyan edər.
Tutar, didər, parçalayar,
Canlılara
Divan edər.

## ÇİYİN-ÇİYİNƏ DURAR

Amerika "Ağ" evlərinlə
Çox da öyünmə, sevinmə.
Bilirəm
Öyüləsi, seviləsi
Çoxlu "Ağ" evlərin var.
Amma Bakının küçələrində
Qoşalaşıb göyləri dələn,
Zirvəsi buludları silkələyən
Ağ evlər.
Sənin Ağ evlərinlə

Çiyin-çiyinə durar, yarışar,
Buludların üstündə məclis
qurar.
Ulduzdan-ulduza
Şahin uçurar.

***2011***

## SƏN ÜRƏYİNDƏ ÇAĞIR

Bilmirəm,
Yerdəyəm, yoxsa göydəyəm,
Səsinin həsrətindəyəm.
Təki sən ürəyində
Səslə məni.
Səsin qapıdan, pəncərədən
Çatacaq mənə.
Yerin yeddi qatında
olsam da
Səsin tapacaq məni.
Təki sən ürəyində
Səslə çağır məni.
Səsin qoşulub küləklərə
Hopub güllərə, çiçəklərə
Səssiz-səsini
Səsinin sirrini açacaq mənə.

$

## İANƏ YIĞMIRAM

Kitab-kitab
Söz axtarıb
İanə yığmıram.
Kitab-kitab
Söz paylayıb,
Bənd-bərəni yıxmışam,
Öz yoluma çıxmışam.

***2012***

## OXUYAN OXUSUN, OXUMAYAN ÖZÜ BİLSİN

Söz ələyib,
Şeir yazıram.
Oxuyan oxusun,
Oxumayan özü bilsin.
Oxuyanlar
Nəsə qazana bilər,
Oxumayanlar
Nəsə itirə bilər.
Oxumayanların bilmədiyini,
Oxuyanlar bilər.

***2012***

$

## SÖZ-SÖHBƏT HƏR EVDƏ OLUR

Hər evdə,
Söz-söhbət olur.
Ev var, söz-söhbəti,
Udur-sinirir.
Ev də var,
Söz-söhbəti udur,
Sinirə bilmir.

***2012***

## BİLMƏK İSTƏSƏNİZ

Nə yazıram,
Nədən yazıram
Bilmək istəsəniz,
Götürün poeziya
dəftərimi,
Oxuyun şeirlərimi.
Şeirlər
Tərcümeyi-halım,
Qəlbimin dərinliyindən
Üzə çıxmış duyğularım...
Oxuyun şeirlərimi,
Şeirlər
Məxfi nə var açacaq,
Məni sizə satacaq,
Gizli sirrim qalmayacaq.

***2011***

## UŞAQ UZUNQULAQ OLDU

Uşaq,
Yol gedənlərin,
Söhbət edənlərin
Yanında dayandı
Sözə-söhbətə
Qulaq asdı,
Qulaqları uzandı.

***2011***

## "ƏCƏLƏ MACAL YOXDUR"

Süfrə arxasında,
Lap yemək vaxtı,
Zaman olanda,
Aman olmayanda,
Aclıqdan yox,
Toxluqdan da
Ölmək olar.
Dünyanın işini,
Zamanın gərdişini
Nə bilmək olar.
"Əcələ macal yoxdur",
Əcəlin nəyinə gərək,
Kim acdır, kim toxdur,
"Əcələ macal yoxdur".

***2011***

## 1 - RƏQƏMLƏRİN ANASIDIR

1 - şax qamətilə,
1 - şah qamətilə
Say karvanında
Birinci yerdə durur.
Qalan doqquz rəqəm,
1 rəqəmindən
Geridə durur.
1 - rəqəmlərin anasıdır,
Bütün rəqəmlər
Birdən doğulur.
Bütöv, bitmiş say olur.

***2011***

## NAMƏLUM SƏFƏR

Düşmüşəm yolun ağına,
Baxıram soluna, sağına.
Naməlum bir səfərə varıram,
Yazmağa yazı axtarıram.
Yazdıqlarımı yox,
Yazmadıqlarımı axtarıram.
Yolların uzunu var,
Gödəyi var,
Qoşqusu var,
Yedəyi var
Yolların da yolçulara

Köməyi var.
Hara aparır bizi bu yollar
Xəbərimiz yoxdur.
Ömrün ömür boyu belə
Yolları çoxdur.
Arzu kimi, istək kimi
Yolların da sonu yoxdur.

***2011***

## GİZLƏYİR

Əsrlər boyu,
Zaman-zaman
İşıq qaranlığı,
Qaranlıq işığı izləyir.
İşıqda baş verənləri,
Qaranlıq öz qoynunda
Gizləyir.
Açıb-ağartmağa
Zamanını gözləyir.

## DEDİ RUSCADIR

Dostumdan soruşdum,
Kefin necədir?
Dedi ruscadır.
İndi gəl başa düş:
Yaxşıdır, yoxsa pisdir?



13. - 3662

İnsanda bəs
Əhval yaxşılaşdıran,
Yaxşını, pisi araşdıran
Görəsən, necənci hissdir?

## İTİN DƏ İT VƏZİFƏSİ OLUR

İt - itdi,
İt qısqırığa
Gedəndi.
İt it olsa da,
Öz işini biləndi.
Sahibinə yalmanıb,
Özgələrə hürəndi.
Hürməyi də özünə
Bir vəzifə biləndi.
Sahibinin əmrilə
O, hamıya hürdü-hürdü
Sahibi çox sevindi,
İtə vəzifə verdi.
İt adi it olsa da,
Eşikağasıdır indi.

$

## MƏMURLARIN MONOLOQU

Kəsə bildik
Mollaların
Sübh çağı,
Zildən verdiyi
Azan səsini.
Əlimiz yetmədi
Kəsə bilmədik
Şəhəri fəth edən,
Səsi beynimizi didən
Bizi dəli edən
Qarğaların
Qar-qar səsini.

***2010***

## DEYİLƏN SÖZ

Deyilən söz
Söz olarsa,
Sözdə
Ocaq olarsa,
Köz olarsa,
Söz haqqında
Söz deməyə,
Sözə sözdən
Don geydirməyə
Ehtiyac olarmı?

## DEYİRLƏR ŞAİRLƏR YAMAN ÇOXALIB

Deyirlər şairlər
Yaman çoxalıb, çoxalsın,
Çoxluğuyla fəxr edək biz də.
Hər şairdən bir misra
Bəyənilərsə,
Görün nə qədər şair
Qonağımız olar,
Yaşayar evimizdə,
Yaşayar ürəyimizdə.

***2011***

## BƏHANƏ

Teleekranlara,
Çağırmadılar məni,
Dedilər:
Teleekranlar çox
kiçikdir,
Sığışdırmaq olmur səni.

***2013***

$

## XALTURAÇI, FAKTURAÇI ŞAİRLƏR

Xalturaçı şairlər də var,
Fakturaçı şairlər də var.
Xalturaçı şairlər
Özgələrə işləyir.
İşləyə bilməyəndə
Kəf gəlir.
Fakturaçı şairlər
Özlərinə işləyir.
Sözdən söz dərir,
Oxuculara göndərir,
Pillə-pillə yüksəlir.

## QƏDRİMİ BİLMƏDİNİZ

Günləri, ayları
Saya-saya
Sizin zamanda,
Gəldim dünyaya.
Ey həmdaşlarım,
Soydaşlarım,
Doğmadaşlarım,
Yaddaşlarım, siz
Vaxtında, zamanında
Qədrimi bilmədiniz.

***2011.***

## GECƏLƏR GECƏLƏRİN YUXUSUNA DAŞ ATMAYAQ

İnsanlar!
Gecə
Gecələrin yuxusuna
Daş atmayaq,
Gecə.
Gecələrin yuxusuna
Haram qatmayaq.
Gecələr də
Gecə
Yatmaq istəyir.
Ağrılarını,
Qayğılarını
Özündən atmaq istəyir.

* * *

Gecə gecələr də
Yatmaq istəyir.
Gecə gecələr də
Rahatlıq tapmaq istəyir.
Gecə gecələrin yuxusunu,
Qoruya bilsək,
İnsani işlər görmüş olarıq.
Vətənin də, vətəndaşların da
Yuxusunu qorumuş olarıq.

$

## BU İŞ TALE İŞİDİR

Bu iş, bil,
Mənlik deyil,
Tale işidir.
Tale də
Göylərdə yazılır,
Günahı məndə deyil.
Taledən yan keçənlər,
Bəlkə, şeytandır,
Heç bəndə deyil.
İradəyə bel bağlayıb,
Tarazlığı saxlayıb,
Ayaqları qoşalayıb
Addımları düz atıram.
Lakin
İzlərim əyri düşər,
Əyri düşən izlərim,
Əyri yazılan sözlərim
Sonda
Gözümə dirənər,
Üzümə durar.
Məni mənim əlimlə
vurar.
Söz allam, söz deməyə
Əyri düşən izlərimi,
Əyri yazılan sözlərimi
Düzəltməyə
Gördüm, bil,

Bu iş mənlik deyil,
Tale işidir.
Tale də
Göylərdə yazılır.

***2011***

## QƏLƏMİM HƏMDƏRD OLUB

Bir varaq götürüb,
Fikrə dalıram və
Əlimə qələm alıram.
Narahat bir ürəklə,
Narahat dünyanın
Narahatlığına həmdərd
Ola bilən,
Şeirlər yazıram.
Beynimdən süzülən,
Vərəqlərə düzülən
Fikirlər beynimi,
Qurd kimi didir.
Masa arxasında otursam da,
Xəyalım dünyanı fəth edir.
Bu gözəl dünyanın
Narahatlığı,
Narahat ürəyimə dərd olur.
Narahat dünyanın,
Nəbzini tutan
Nəbzinə hopan
Şeirlər yazanda,

Mən qələmə,
Qələm mənə həmdərd olur.

***2011***

## DƏRD VƏ İNSAN

İnsan dərd çəkir,
Dərd insanı çəkir.
İnsan dərdlə əlləşir,
Dərd insanla helləşir.
Dərdin ağırlığı, ağrısı
Ürəkdədir.

***2011***

## ÇƏK-ÇƏKƏK

Çək-çəkək çəkilənləri,
Çək-çəkək bu torpaqda
Bitənləri, itənləri,
Əlimizə yetənləri.
Çək-çəkək:
Ölənləri, itənləri.
Çək-çəkək bizə gələnləri,
Çək-çəkək bizdən gedənləri,
Bizi məyus edənləri!

***2011***

## TƏZƏLİYİ TEZLƏŞDİRƏK

Dostlar!
Gəlin əl-ələ verək,
Bir savab iş görək.
Qocalmış, əldən düşmüş,
Nimdaş dünyanın
Üzünə, astarına
Ütü çəkək, ütüləyək,
Ya da təzə don geydirək,
Üzünü, astarını gözəlləşdirək.
Baxıb gözəl dünyaya,
Özümüzü də,
Təzələşdirək.
Dünya "fani dünyadır",
Təzəliyi tezləşdirək.

***2011***

## ÜRƏK SEVGİ YUVASIDIR

Üz üzdən üzülsə də,
Göz üzdən üzülməz.
Göz gözəl üzdə gəzər,
Gözəllərə göz dəyməz.
Sevginin gözü "kor" olsa da,
Ürəyin gözü kor olmaz.
Yar yardan doysa da,
Göz gözəllikdən doymaz.

Üz üzdən utansa da,
Ürək pərdədən baxır.
Ürək sevgi yuvasıdır,
Dünya sevgi dünyasıdır.

## ƏGƏR

Əgər müəllif oxunmursa,
Şeirləri ürəklərdə
Sarı simə toxunmursa
Özümüz-özümüzdən küsək,
Şeirlərimizdən, sözümüzdən
küsək.
Özümüz-özümüzü
Saz üstə,
Söz üstə
Saza, sözə
Kökləyək.

***2011***

## GETMƏ KABAB İYİNƏ

Aldanma,
Getmə kabab iyinə.
Dünyanın dərdləri
Şişə çəkilir.
Kabab iyinə gedənlər
Dişə çəkilir.

***2011***

## QONŞUYA ÜMİD OLAN AC YATAR

İstəmədən,
Dəyirmançı oldun,
Adın çıxdı.
Çağırdın, çığırdın
"Dən" Koroğlu.
Koroğlu gəlmədi,
Dən olmadı
Acından canın çıxdı.

## HƏYAT MÜBARİZƏ MEYDANIDIR

Həyatda mübarizə çoxdur,
Həyatda sabit həyat yoxdur.
Həyat inqilabdır,
Həyat mübarizədir.
Həyatda ən böyük mübarizə,
"Ol"maqla "öl"mək
Arasındakı
Mübarizədir.
Mübarizə
Daxilimizdədir,
Döyünən ürəyimizdə,
Düşünən beynimizdədir.

***2011***

$

## SƏHNƏ TİTRƏDİ ALQIŞ SƏSİNƏ

***Xalq artisti Mələkxanıma***

Xanəndə qız,
Qaval Ayı
Niqab etdi.
Ay üzünə,
Ağ üzünə.
Nazəndə görkəmi
Verdi özünə.
Xal vurdu,
Bəzək verdi,
Şəkər qatdı
Nəğməsinə,
Səhnə titrədi
Alqış səsinə.

## İNSAN İNSANIN DAYAĞIDIR

İstər doğma olsun,
İstərsə yad,
İnsan insanın
Dayağındadır.
İstəyirsən inan,
İstəmirsən inanma.
Zəhər ilanın dişində,
Bal arının ayağındadır.
İnsanlara nəzər salsaq

Görərik ki,
Bal da insanın dilindədir,
Zəhər də insanın dilindədir.
İnsanın taleyi, xoşbəxtliyi,
Öz əlindədir,
Öz dilindədir.

***2011***

## SƏNDƏ NƏSƏ VAR

